

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 35 (826) ■ 7 sentyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Regionların inkişafı ölkə iqtisadiyyatına mühüm töhfə verir

## Prezident İlham Əliyev Masallı, Biləsuvar və Salyan rayonlarına səfər edib

**Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Masallı rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Masallı şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Dövlətimizin başçısı Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin rəmzi açılışını bildirən lenti kəsib və ekspozisiya ilə tanış olub.**



Azərbaycan Prezidenti İlham Əliyev Masallıya səfəri çərçivəsində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN həyat» kompleksinin açılışında iştirak edib. Bildirilib ki, kompleks 4 mərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektləri üçün nəzərdə tutulan binalardan ibarətdir. Kompleksin 4480 kvadratmetr ərazisində «ASAN xidmət» mərkəzi fəaliyyət göstərir. Mərkəzdə 10 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım, tərcümə xidmətləri təşkil edilib. Bu mərkəz Masallı rayonu da daxil olmaqla Cəlilabad, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarının əhalisinə, ümumilikdə 839.450-dən çox vətəndaşa xidmət göstərəcək. Burada 170 nəfər işlə təmin olunub, 80 nəfər könüllü işə cəlb edilib.

Prezident İlham Əliyevə «ASAN həyat» konsepsiyası barədə də məlumat verilib. Bildirilib ki, , bu konsepsiya Masallı «ASAN xidmət» Mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur. «ASAN həyat» kompleksi vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.

«ASAN həyat» kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev mərkəzin əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, mərasimdə çıxış edib. Qeyd edib ki, «ASAN xidmət» mərkəzlərinin, xüsusilə Masallıdakı mərkəzin yaradılması ölkəmizin həm gücünü, həm siyasətini göstərir. Masallının inkişafı üçün önəmli addımlar atıldığını xatırladan Prezident İlham Əliyev rayonda infrastruktur, sosial infrastruktur, sənaye, kənd təsərrüfatı layihələrinin icra edildiyini, rayonun inkişafı ilə əlaqədar mühüm layihələrin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Masallıda 640 yerlik uşaq-incəsənət məktəbinin istifadəyə verilməsi, şəhərin içməli su təchizatı layihəsinin və Tarix-Diyarşünaslıq Muzeyinin açılış mərasimlərində də iştirak edib.

Həmin gün Biləsuvar rayonuna gələn dövlətimizin başçısı əvvəlcə şəhərin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub. Biləsuvarda 132 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının açılış mərasimində iştirak edən dövlətimizin başçısına bildirilib ki, xəstəxana binasının əsaslı təmirinə 2013-cü ildə başlanılıb və yenidənqurma işləri 2016-cı ilin iyul ayında başa çatdırılıb. Bu tibb ocağının ərazisi 4 hektardan çoxdur və əsaslı təmir işləri aparılan binaların ümumi sahəsi 9477 kvadratmetr təşkil edir. Xəstəxanada 8 şöbə fəaliyyət göstərir. Bunlar cərrahiyyə, doğum, travmatologiya, infeksion xəstəliklər, dializ, kompüter tomoqraf olmaqla şüa-diaqnostika, intensiv terapiya və poliklinika şöbələridir. Bu tibb ocağının bütün korpusları ən müasir standartlara cavab verir.

Azərbaycan Prezidenti Biləsuvar rayonuna səfəri çərçivəsində uzunluğu 6 kilometr olan Əsgərabad-Muğan-Çaylı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyev həmin gün Biləsuvar rayonundan  Salyan rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ulu öndərin şəhərin mərkəzindəki Heydər Əliyev parkında ucaldılmış abidəsini ziyarət edib, sonra Şirvan-Muğan magistral kəmərindən çəkilmiş yeni içməli su xəttinin, Salyan Tarix-Diyarşünaslıq Muzeyinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak edib. Salyanın Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən, Kür çayı üzərində uzunluğu 201 metr, eni 14,5 metr olan yeni körpünün açılışına qatılan dövlətimizin başçısı Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun bu rayonun ərazisindən keçən 23,4 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində iştirak edib.

Prezident İlham Əliyev Salyana səfəri çərçivəsində Kürsəngi kəndindəki pambıq sahələrinə baxıb. Dövlətimizin başçısına məlumat verilib ki, 2016-cı ildə rayonun 16 kəndində 2168 hektar sahədə pambıq əkini aparılıb, gələn il isə 7 min hektarda pambıq əkilməsi planlaşdırılır. Ölkəmizdə pambıqçılığın inkişafı ilə bağlı tədbirlərin görüldüyünü, 24 rayonda yeni proqram icra edildiyini, o cümlədən Salyan rayonunda pambıq sahələrinin genişləndirildiyini qeyd edən Prezident İlham Əliyev bildirib ki, 2015-ci ildə Salyanda 400 hektar pambıq sahəsi var idisə, bu gün artıq 2200 hektarda pambıq əkilib. Gələn il bu, 7 min hektara qalxacaq.

Sonra dövlətimizin başçısı tarlada pambıqçılarla söhbət edib.

# Olimpiyaçılarımız mükafatlandırıldı

Sentyabrın 2-də dövlət başçısı, Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşüb. Görüşə toplaşanlar Azərbaycan Prezidentini, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşılayıblar.

Dövlət başçısı görüşdə nitq söyləyib. Sonra Prezident İlham Əliyevin Azərbaycan milli olimpiya komandasının üzvlərinin təltif edilməsi ilə bağlı sərəncamları elan edilib. Dövlət başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXXI Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu»nu, «Tərəqqi» medallarını, «Şöhrət», «Vətənə xidmətə görə» ordenlərini təqdim edib, onlara bir daha uğurlar arzulayıb. Azərbaycanın sərbəst güləş üzrə yığma komandasının böyük məşqçisi Firdovsi Umudov, XXXI Yay Olimpiya Oyunlarının gümüş medalçısı Toğrul Əsgərovun şəxsi məşqçisi Elçin Zeynalov, kişilərdən ibarət taekvondo üzrə yığma komandanın məşqçisi Elnur Amanov, Olimpiya Oyunlarının bürünc mükafatçısı, cüdoçu Elmar Qasımov, Rio Olimpiadasının gümüş medalçısı, güləşçi Mariya Stadnik çıxış edərək ölkəmizdə idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını çatdırıblar.

# Paytaxt məktəbləri yeni dərs ilinə hazırdır

Prezident İlham Əliyev sentyabrın 5-də Bakının Xətai rayonundakı 245 nömrəli tam orta məktəbin yeni inşa edilən tədris korpusunda yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, «2014-2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən iki il ərzində görülən tədbirlər nəticəsində 2630 kvadratmetr sahəsi olan yeni korpusun inşası yüksək səviyyədə başa çatdırılıb. Yeni korpus 20 sinif otaqlı olmaqla 576 şagird üçün nəzərdə tutulub. Bütün sinif otaqları zəruri tədris ləvazimatları, əyani vəsaitlərlə təchiz edilib. Məktəbdə 189 işçi çalışır, şagirdlərin təlim-tərbiyəsi ilə 166 müəllim məşğul olur. 2015-2016-cı tədris ilində bu təhsil ocağını bitirən 127 şagirddən 76 nəfəri bu il yüksək nəticə göstərərək müxtəlif ali məktəblərə qəbul olunub.

Həmin gün dövlətimizin başçısı Xətai rayonundakı 265 nömrəli tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə də tanış olub. Məlumat verilib ki, məktəbin bütün sinif otaqları zəruri avadanlıqla təchiz edilib. Burada şagirdlərə ən yüksək səviyyədə təhsil vermək üçün hərtərəfli şərait var. 1076 şagird yerlik məktəbdə tədris ikinövbəlidir. Məktəbdə tədris Azərbaycan və rus dillərində aparılır. Hazırda məktəbdə 48 sinifdə 1060 şagird təhsil alır.

Prezident İlham Əliyev sentyabrın 6-da Bakının Nizami rayonundakı 229 və 109 nömrəli tam orta məktəblərin əsaslı təmirdən sonra istifadəyə verilməsi mərasimlərində də iştirak edib. Dövlətimizin başçısı məktəblərin sinif otaqlarına, fənn kabinələrinə, akt və idman zallarına baxıb. Hər iki təhsil ocağının fənn kabinələri, laboratoriyalar və digər otaqlar zəruri dərs ləvazimatı ilə təchiz olunub. Təhsil ocaqlarının akt və idman zalları da müasir standartlar səviyyəsində qurulub.

# Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib

Sentyabrın 1-də Bakıda, Milli Gimnastika Arenasında 42-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov və təşkilatın digər nümayəndələri, şahmat üzrə dünya çempionları, dövlət və hökumət rəsmiləri iştirak ediblər.



Dövlətimizin başçısı İlham Əliyevin Olimpiada iştirakçılarına məktubunda əminliklə bildirilir ki, ölkəmizə xas qonaqpərvərlik və idmana olan dərin hüsn-rəğbət yarışların yüksək səviyyədə keçirilməsi üçün gözəl imkanlar yaradacaq. Məktubda deyilir ki, Rio-de-Janeyro Olimpiadasının zəngin təəssüratları ilə yaşayan Azərbaycan bu mötəbər şahmat yarışlarına böyük ruh yüksəkliyi ilə ev sahibliyi edir. Tarix boyu Şərq ilə Qərb arasında körpü rolunu oynamış ölkəmizdə qədim dövrlərdən şahmata daim böyük maraq müşahidə edilib. XX əsrdə Azərbaycanda şahmatın yayılması kütləvi xarakter alıb, müxtəlif səviyyəli mötəbər turnirlər keçirilməyə başlayıb. İdmançılarımızın bu yarışlarda qazandığı uğurlar şahmatın bir idman növü kimi daha geniş vüsət almasına təkan verib. Azərbaycanın bütün bölgələrində uşaq şahmat məktəblərinin fəaliyyətə başlaması ölkəmizdə şahmata göstərilən xüsusi diqqətin təzahürüdür. Həmin amillər dövlət müstəqilliyinin bərpasından sonra bizim şahmat məktəbimizin inkişafına xidmət edərək bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirib. Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı bölgələrində də baş tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılan mühüm addımdır.

Davamı 8-ci səhifədə

## BU NÖMRƏMİZDƏ

BİZNES NÜMAYƏNDƏLƏRİNİN İCTİMAİ BİRLİKLƏRİ VERGİ ORQANLARINDA APARILAN İSLAHATLARI MÜZAKİRƏ EDİRLƏR 2

AZƏRBAYCAN ŞƏFFAFLIQ VƏ MƏLUMAT MÜBADİLƏSİ SAHƏSİNDƏ ETİBARLI TƏRƏFDAŞDIR 3

ƏSAS HƏDƏF VERGİ ÖDƏYİCİLƏRİNƏ KEYFİYYƏTLİ XİDMƏT GÖSTƏRMƏKDİR 4

VERGİ İSLAHATLARI İCTİMAİYYƏTİN MÜZAKİRƏSİNDƏ... 5

# Azərbaycanda Turizm Şurası yaradılır

Prezident İlham Əliyev Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Məqsəd «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»ndən irəli gələn vəzifələrin icrası, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sənayesinin formalaşdırılması və onun ölkə iqtisadiyyatındakı xüsusi çəkisinin daha da artırılması, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsidir.

Sərəncamla yaradılan Azərbaycan Respublikasının Turizm Şurasının əsas məqsədi ölkədə turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir. Şura öz fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə, habelə işçi qruplar yarada bilər.

Sərəncamda Nazirlər Kabinetinə 2017-ci il və növbəti illər üzrə Azərbaycanın dövlət büdcəsinin layihəsində Mədəniyyət və Turizm Nazirliyinin müraciəti əsasında ticarət festivallarının («shopping festival») keçirilməsi ilə bağlı tələb olunan vəsaitin nəzərdə tutulmasını təmin etmək, Nazirliyin təklifləri əsasında Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının 2016-2017-ci illər üzrə fəaliyyət planını hazırlayıb təsdiq etmək və zəruri maliyyələşməni təmin etmək, İqtisadiyyat, Maliyyə, Mədəniyyət və Turizm nazirlikləri, Dövlət Mülki Aviasiya Administrasiyası və «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə ölkəyə turistləri cəlb etmək məqsədilə əlverişli yeni beynəlxalq uçuşların (reyslərin) təşkili ilə bağlı tədbirlər görmək və bu barədə Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

Nazirlər Kabineti, həmçinin, Mədəniyyət və Turizm və Təhsil nazirlikləri ilə birlikdə turizm və rekreasiya zonalarında Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində turizm üzrə ilk peşə-ixtisas təhsili müəssisələrinin (peşə məktəbləri və peşə liseyləri) yaradılması və bu məqsədlə müvafiq torpaq sahəsinin və əmlakın ayrılması ilə bağlı tədbirlər görəcək. Sərəncamda Mədəniyyət və Turizm Nazirliyinə Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə beynəlxalq təcrübədə geniş tətbiq olunan ticarət festivallarının («shopping festival») hər il keçirilməsini təmin etmək, Maliyyə, Vergilər nazirlikləri və Dövlət Gömrük Komitəsi ilə birlikdə ticarət festivallarında pərakəndə satış zamanı müvafiq güzəştlərin və təşviqlərin, o cümlədən vergi güzəştlərinin verilməsinə, İqtisadiyyat Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadə etməklə çimərlik turizminin inkişafına dair təklifləri hazırlayıb üç ay müddətində Prezidentə təqdim etmək tapşırılıb.

Mədəniyyət və Turizm Nazirliyi, həmçinin, İqtisadiyyat, Maliyyə, Vergilər nazirlikləri və Dövlət Gömrük Komitəsi ilə birlikdə turizm və rekreasiya zonalarında vergi və gömrük güzəştlərinin və imtiyazlarının verilməsi ilə bağlı təklifləri hazırlayıb üç ay müddətində Prezidentə təqdim edəcək. Bundan başqa, nazirlik yerli icra hakimiyyəti orqanları ilə birlikdə Azərbaycanın turizm potensialı olan ərazilərində dövlət-sahibkar tərəfdaşlığı əsasında turizm və rekreasiya zonalarının yaradılması barədə təklifləri hazırlayıb altı ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Sərəncama əsasən, Mədəniyyət və Turizm Nazirliyi Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının Baş inkişaf planlarını hazırlayıb təsdiq etməli və onların pasportlarının dövlət qeydiyyatına alınmasını təmin etməli, beynəlxalq təcrübə nəzərə alınmaqla, turizm potensialı olan məkanlara turistlərin cəlb olunması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Prezidentə təqdim etməlidir. Xarici İşlər Nazirliyi ilə birlikdə isə ölkənin turizm potensialının təşviqi, turizm məhsullarının dünya turizm bazarına çıxarılması, satışının təşkili və ölkəyə turist axınının artırılması məqsədilə prioritet hesab olunan ölkələrdə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyini və onların fəaliyyətinin təmin olunması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Prezidentə təqdim etməlidir.

Mədəniyyət və Turizm Nazirliyi, həmçinin, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidməti ilə birlikdə Azərbaycanın Rusiya, Türkiyə, İran və Gürcüstan ilə sərhəd buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb üç ay müddətində Prezidentə təqdim etməlidir. Bundan başqa, nazirlik müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə turizm ehtiyatları, turizm nümayişi obyektləri, turizm məhsulları və turizm sənayesinin subyektləri haqqında məlumat bazasını, o cümlədən turizm ehtiyatları, turizm sənayesi və turizm fəaliyyəti barədə statistik məlumatları və onların monitorinqinin nəticələrini özündə əks etdirən Turizm Reyestrinin və informasiya saytının yaradılmasını altı ay müddətində təmin etməlidir.

# Elektron ticarətə vergi nəzarəti gücləndirilir

**Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı bu il vergi sahəsində əsaslı islahatlara yol açıb. Həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.**

Elektron ticarət - texnologiyalardan istifadə ilə malların alğı-satqısı, xidmətlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Ölkəmizdə «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul edilib. 2008-ci il dekabrın 2-də «SilverKey Azərbaycan» şirkəti ilk dəfə olaraq «VISA» və «MasterCard» vasitəsilə xüsusi lisenziya alıb və bundan sonra Azərbaycanda e-ticarət formalaşmağa başlayıb.

Ölkəmizdə biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları mövcuddur. Bunlara «Elektron imza və elektron sənəd haqqında», «Elektron ticarət haqqında» qanunlar, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə elektron ticarətlə bağlı müddəaların daxil edilməsini göstərmək olar. Hazırda elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır.

Qeyd etmək lazımdır ki, elektron ticarətdə «elektron pulların» tətbiqi bu sahəyə vergi nəzarətinin həyata keçirilməsini çətinləşdirir. Bundan başqa, belə əməliyyatların transmilli olması vergi nəzarəti üçün əlavə problemlər yaradır. Təcrübə göstərir ki, bir çox hallarda e-ticarət əməliyyatları həyata keçirən şəxsin, yəni satıcının bir dövlətin, alıcının isə digər dövlətin rezidenti olması, serverin isə tamamilə başqa dövlətdə yerləşməsi vergi orqanlarının üzləşdiyi əsas problemlərdəndir.

**Vergilər Nazirliyinin mütəxəssisləri elektron ticarətin vergiyə cəlb olunmasının daha səmərəli mexanizminin yaradılması üçün qanunvericiliyin və informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində ciddi işlər görürlər**

Hazırda Vergilər Nazirliyinin mütəxəssisləri elektron ticarətin vergiyə cəlb olunmasının daha səmərəli mexanizminin yaradılması üçün qanunvericiliyin və informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində ciddi işlər görürlər. Elektron ticarət üzrə vergi nəzarətinin təşkil edilməsi məqsədilə, ilk növbədə, ölkədə kommersiya məqsədləri ilə yaradılan bütün internet resursları vergi uçotuna alınmalı və onların gəlirlərinin vergi qanunvericiliyinə uyğun bəyan edilməsi təmin olunmalıdır. Eyni zamanda, bu növ fəaliyyəti həyata keçirən şəxslərin istifadə etdiyi veb səhifələrin müəyyən edilməsi ilə vergi orqanında uçotunun yoxlanılması həyata keçiriləcəkdir.

Azərbaycan Respublikasında internet istifadəçilərinin sayının artması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internet vasitəsilə alış-veriş edən əhalinin sayının gündən-günə çoxalması ölkəmizdə elektron ticarətin vergiyə cəlb olunması üçün böyük potensial olduğunu göstərir. Son illər ölkə daxilində internet saytlarında və ya sosial şəbəkələrdə reklam yerləşdirməklə, habelə internet üzərindən elektron ticarət həyata keçirməklə bağlı iqtisadi fəaliyyətin miqyasının artması müşahidə edilir. Məlum olduğu kimi, xərclər aşağı olduğundan elektron ticarət məhsulların daha ucuz qiymətə təklif edilməsi ilə səciyyələnir.

Elektron ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin uçotu istehlakçıların hüquqlarının qorunmasına da öz müsbət təsirini göstərəcəkdir. Bəzi hallarda istehlakçıların elektron ticarət şəbəkələrindən mal alarkən hüquqları pozulur. Bu baxımdan, həmin vergi ödəyicilərinin uçota alınması elektron ticarət sahəsində satıcı və alıcı arasındakı münasibətlərin tənzimlənməsinə şərait yaradacaqdır.

# Biznes nümayəndələrinin ictimai birlikləri vergi orqanlarında aparılan islahatları müzakirə edirlər

Sentyabrın 5-də Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri və Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) üzvləri arasında görüş keçirilib. Görüşün təşkil



edilməsində məqsəd Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında əks olunan islahat istiqamətləri üzrə fikir mübadiləsi aparmaq, verilmiş tapşırıqların icrası zamanı özəl sektorun təkliflərinin də nəzərə alınmasının təmin edilməsi olub.

Görüşdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva bildirib ki, vergi sahəsində aparılacaq əsas islahatları ehtiva edən sərəncamın icrası ilə bağlı işlər dörd əsas istiqamətdə - vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi ödəyicilərinə xidmətin səviyyəsinin daha da yüksəldilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətlərində aparılır. Bu işlər çərçivəsində ƏDV-nin diferensiallaşdırılması, sabit verginin tətbiqi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi (ATR), könüllü vergi açıqlaması, vergi yoxlamalarının qısa müddətdə başa çatdırılması və nəticələrinin rəsmiləşdirilməsi zamanı vergi ödəyicisinin iştirakının təmin edilməsi, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, transfer qiymətqoyma, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması, ictimai məlumatlandırma mexanizmlərinin hazırlanması, intizamlı vergi ödəyicilərinin müəyyən edilərək onlara müəyyən imtiyazların verilməsi, Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmətlərin dairəsinin genişləndirilməsi xüsusi yer tutur.

Sonra həyata keçiriləcək islahatlarla bağlı biznes subyektlərinin nümayəndələrinin təklifləri dinlənilib, vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətləri ətrafında geniş müzakirələr aparılıb. Görüş açıq fikir mübadiləsi və dialoq şəraitində keçib.

# İnsanlar öz əmək hüquqlarını bilməlidirlər

Azərbaycan qanunvericiliyi əmək ehtiyatlarından səmərəli istifadəyə, əmək bazarında mövcud münasibətlər sisteminin hüquqi müstəvidə tənzimlənməsinə, işçi hüquqlarının etibarlı müdafiəsinə və qeyri-leqal məşğulluğun aradan qaldırılmasına xidmət edir. Müntəzəm şəkildə təkmilləşdirilən qanunvericiliyin müddəalarından biri də əmək müqavilələrinin hüquqi statusu ilə bağlıdır.

Qanunvericiliyə görə, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) elektron informasiya sistemində müvafiq bildirişin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsidir.

Vergilər Nazirliyi əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi ilə bağlı işəgötürənlərin məlumatlandırılmasına xüsusi əhəmiyyət verir. Bununla əlaqədar nazirliyin rəsmi internet saytında müxtəlif məlumatlar yerləşdirilmişdir. Maarifləndirmə və məlumatlandırma işləri çərçivəsində vergi ödəyicilərinə xidmət mərkəzlərində, müxtəlif tədbirlərdə əmək müqavilələri barədə əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsində işəgötürənlərə zəruri köməkliklər göstərilir.

Vergilər Nazirliyi qanunvericiliyin tələblərinin pozulması halında işəgötürənlərin üzləşəcəkləri sanksiyalar, cərimələr və cinayət məsuliyyəti barədə onlara zəruri xəbərdarlıqlar edir. Bununla bağlı nazirliyin işəgötürənlər üçün hazırladığı xüsusi xəbərdarlıq formasında əmək müqaviləsinin imzalanmamasının, habelə əmək müqaviləsi bildirişinin müvafiq elektron informasiya sisteminə daxil edilməməsinin doğurduğu hüquqi məsuliyyət barədə fiziki və hüquqi şəxslərə ətraflı məlumatlar verilir.

Qeyd edək ki, Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə, işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsində isə Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə - fiziki şəxslərə 1000 manatdan 3000 manatadək, vəzifəli şəxslərə 3000 manatdan 5000 manatadək, hüquqi şəxslərə isə 20.000 manatdan 25.000 manatadək miqdarda cərimə nəzərdə tutulub. Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə isə işəgötürən Cinayət Məcəlləsinin 162-1-ci maddəsi üzrə cinayət məsuliyyətinə cəlb edilir. Burada «xeyli sayda» dedikdə on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur.

Yeni qanunvericilikdə cinayətin əlamətləri vergi nəzarəti zamanı aşkar olunduqda, Cinayət Məcəlləsinin 162-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə ibtidai istintaq Vergilər Nazirliyinə həvalə edilmişdir.

**Rəşad SADIQOV**

# Vergi statistikası sistemi mövzusu müzakirə edilib

Vergilər Nazirliyinin təmsilçiləri Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilmiş «İnkişaf etməkdə olan ölkələr üçün vergi statistikası sistemi» mövzusunda seminarda iştirak etmişlər. Tədbirdə «Çində vergitutmanın əsasları», «Çində biznes statistikasının əsasları», «Vergi ödəyicilərinin qeydiyyatının idarə edilməsi», «Layihənin idarə edilməsi», «Vergi ödəyiciləri tərəfindən e-gəlir məqsədi üçün tətbiq olunan mühasibat uçotunun idarə edilməsi», «Vergi auditi» və «Vergi statistikasında hesab-fakturalar» mövzularında təlimlər təşkil olunmuşdur.

Seminarda Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməliyyatlarına nəzarət şöbəsinin stajçı baş dövlət vergi müfəttişi Elxan Əhmədzadə, Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin Təhlil və strukturlarla inteqrasiya idarəsinin Qiymətləndirmə şöbəsinin baş dövlət vergi müfəttişi Orxan Hüseynov, Vergilər Nazirliyinin Aparatının İcra və əmək intizamına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Əhməd Əhmədov iştirak etmişlər.

# Azərbaycan şəffaflıq və məlumat mübadiləsi sahəsində etibarlı tərəfdaşdır

## «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»da Azərbaycanın nailiyyətləri yüksək qiymətləndirilir



Zaur FƏTİZADƏ,
Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri

Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi orqanları qarşısında mühüm vəzifələr müəyyən etmişdir. Sərəncamda sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi, vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, vergi ödəyicilərinə xidmət sahəsində beynəlxalq təcrübənin daha geniş tətbiq edilməsi, eləcə də vergi sistemində şəffaflığın daha da artırılması, vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinq əldə edilməsi kimi hədəflər müəyyən edilmişdir. Hazırda Vergilər Nazirliyi sərəncamın icrası ilə bağlı genişmiqyaslı işlər aparır.

Şəffaflığın artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə indiyədək ölkəmizdə kompleks tədbirləri əhatə edən fəaliyyət planları uğurla icra edilmiş, vergi sistemində də köklü islahatların aparılması, vergi qanunvericiliyi və inzibatçılığının beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi, innovativ və geniş elektron xidmətlər sisteminin yaradılması təmin olunmuşdur. Bütün bunlar isə öz növbəsində vergi sistemində idarəetmə və nəzarət mexanizmlərinin səviyyəsini yüksəltməyə, vergi münasibətlərinin tənzimlənməsi sahəsində çevik siyasət həyata keçirməyə, ölkəmizin investisiya cəlbediciliyinin yüksəldilməsinə, beynəlxalq təşkilatların və xarici dövlətlərin müvafiq qurumları ilə sıx əməkdaşlıq əlaqələri yaradılmasına və səmərəli məlumat mübadiləsi sisteminin qurulmasına imkan vermişdir.

### Məlumat mübadiləsində beynəlxalq standartların tətbiqi

Vergilər Nazirliyi məlumat azadlığına və məlumat mübadiləsinin səmərəliliyinin artırılmasına xüsusi önəm verir. Bu məqsədlə qabaqcıl beynəlxalq təcrübə və standartların öyrənilməsi və tətbiqi üçün vergi inzibatçılığı sahəsində baş verən qlobal proseslər yaxından izlənilir, aidiyyəti beynəlxalq və regional təşkilatlarla, inkişaf etmiş dövlətlərin müvafiq orqanları ilə əməkdaşlıq genişləndirilir.

Bir çox nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT, G8, G20, Avropa Şurası və Avropa İttifaqı tərəfindən tövsiyə edilən, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanmış «Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı» OECD-nin Model Vergi Konvensiyasının 26-cı maddəsində və 2002-ci il tarixli Vergi məsələləri üzrə Məlumat Mübadiləsi Model Sazişində əksini tapmışdır. Bu standartın tətbiqinə nail olmaq məqsədilə 2009-cu ildə OECD-nin Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi nəzdində «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum» yaradılmışdır. Artıq dünyanın 134 ölkəsi 2010-cu ildən de-fakto müstəqil təşkilat kimi fəaliyyət göstərən bu qurumun üzvüdür. Bundan əlavə, Forumda 9 beynəlxalq və regional təşkilat - BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, İnter-Amerika İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Birlik Ölkələrinin Katibliyi müşahidəçi qismində təmsil olunurlar.

Foruma üzvlük dövlətlərin, ilk növbədə, məlumat mübadiləsi haqqında müqavilələr üzrə danışıqlar aparmaq, təmsil olunan beynəlxalq maliyyə qurumları ilə məlumat mübadiləsi etmək imkanlarını artırır. Forum vergi məqsədləri üçün şəffaflığın artırılması üzrə zəngin ekspertiza mənbəyidir. Bir üzv dövlət digərinin aidiyyəti qanunvericiliyinin təhlilinə cəlb olunur ki, bu da dəvət edilən ölkəyə gələcəkdə öz qanunvericiliyini təkmilləşdirən zaman faydalı ola bilər.

Qlobal Forumun qaydalarına əsasən, hər bir üzv ölkə iki mərhələdən ibarət qiymətləndirmə prosesinə cəlb olunur. Birinci mərhələdə qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu, ikinci mərhələdə isə həmin qanunvericiliyin praktikada tətbiqi səviyyəsi qiymətləndirilir. Hər iki mərhələnin nəticələri əsasında ölkənin beynəlxalq standartlara uyğunluq səviyyəsi müəyyənləşdirilir.

### Azərbaycanın Qlobal Foruma üzvlüyü və qiymətləndirilməsi

Azərbaycan Respublikası Qlobal Foruma 2013-cü il fevralın 26-da üzv olmuş və bununla da məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq razılaşdırılmış standartın tətbiqi öhdəliyini qəbul etmişdir. Bu öhdəliyə aşağıdakılar daxildir:

- beynəlxalq müqavilələrin müddəalarının, tərəfdaş ölkənin yerli qanunlarının tətbiqi üçün müvafiq məlumatların əldə olunması məqsədilə həmin ölkənin müraciəti əsasında məlumat mübadiləsinin aparılması;
- məlumat mübadiləsinə bank sirri və yerli vergi maraqları tələblərindən irəli gələn heç bir məhdudiyyətin qoyulmaması;
- etibarlı məlumatın mövcudluğu və onu əldə etmək gücünün olması;
- mübadilə olunan məlumatların tam məxfiliyinin qorunması.

Azərbaycan üzrə qiymətləndirmənin birinci mərhələsinə 2014-cü ilin dekabr ayında başlanılmış, hazırlanan hesabat layihəsi Qlobal Forumun 21-24 sentyabr 2015-ci il tarixli 21-ci iclasında müzakirə edilmişdir. Nəticədə Azərbaycanda vergi məqsədləri üçün məlumat mübadiləsinin tətbiqi mexanizmi üzrə qanunvericiliyin tələblərinə müsbət rəy verilərək, ölkəmizin qiymətləndirmənin birinci mərhələsini uğurla keçdiyi barədə qərar qəbul edilmişdir.

Ötən ilin dekabrında başlanmış ikinci mərhələ çərçivəsində Qiymətləndirmə Qrupunun üzvləri ölkəmizə səfər etmişlər. Mart ayında baş vermiş səfər müddətində ekspertlər məlumatların mübadiləsi üzrə Vergilər Nazirliyi və digər səlahiyyətli qurumların nümayəndələri ilə görüşlər keçirmiş, vergi inzibatçılığında şəffaflıq prinsiplərinin gözlənməsi ilə əlaqədar görülmüş işlər və məlumat mübadiləsi prosesi ilə tanış olmuş, Vergilər Nazirliyində məlumatların təhlükəsizliyinin beynəlxalq standartlar səviyyəsində qorunması sistemini nəzərdən keçirmişlər. Qiymətləndiricilər Vergilər Nazirliyində 2006-cı ildən tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) alt modullarının funksiyaları və məlumatların mühafizəsi sistemi ilə də yaxından tanış olmuşlar. Ekspertlər bir daha əmin olmuşlar ki, şəffaflığın təmin edilməsinin əsas amillərindən olan müasir informasiya-kommunikasiya texnologiyalarının vergi sistemində tətbiqi, elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması Azərbaycanda xüsusi diqqətdə saxlanılan sahələrdəndir.

Xarici dövlətlərdən göndərilən sorğuların nazirlikdaxili icrasının, eləcə də icraya nəzarətin təşkili və sorğuların əksəriyyətinin qəbul edilmiş beynəlxalq normadan (90 gün) daha az müddətdə - 60 gün ərzində cavablandırılması ilə bağlı faktiki göstəricilər ekspertlərin diqqətinə çatdırılmışdır. Bildirilmişdir ki, beynəlxalq sorğularla bağlı bir çox məlumatların Vergilər Nazirliyinin məlumat bazalarında toplanması, digər dövlət qurumları ilə inteqrasiya sisteminin mövcudluğu sorğuların qısa müddətdə və keyfiyyətlə cavablandırılmasına imkan yaradır. Bu isə beynəlxalq sorğunu göndərən dövlətlərdə aparılan vergi nəzarətinin qısa müddətdə həyata keçirilməsinə, nəzarət tədbirlərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Bununla yanaşı, sorğu olunan subyektlər barədə məlumatların xüsusi təhlükəsizlik şərtləri altında mühafizəsi həm beynəlxalq öhdəliyin yerinə yetirilməsi, həm də qarşı tərəflərin maraqlarının qorunmasına xidmət edir.

Azərbaycan Respublikası Qlobal Foruma 2013-cü il fevralın 26-da üzv olmuş və bununla da məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq razılaşdırılmış standartın tətbiqi öhdəliyini qəbul etmişdir

Qlobal Forumun qiymətləndiricilərinə məlumat verilmişdir ki, vergi inzibatçılığının avtomatlaşdırılması və nazirlik daxilində təhlükəsizlik tədbirlərinin gücləndirilməsi nəticəsində Vergilər Nazirliyi 2015-ci ildə İSO/İEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartı sertifikatına layiq görülmüşdür.

Qaydalara uyğun olaraq, Qiymətləndirmə Qrupunun hazırladığı hesabat layihəsi ilkin mərhələdə baxılması üçün artıq Vergilər Nazirliyinə təqdim edilmişdir. Layihənin müddəalarının müzakirəsi və zəruri təkliflərin bildirilməsi üçün nazirliyin nümayəndə heyəti Qlobal Forumun 2016-cı ilin 20-24 iyun tarixlərində Norveçin Oslo şəhərində təşkil olunmuş 23-cü iclasında iştirak etmişdir. Forumun rəhbərliyi və Qiymətləndirmə Qrupunun üzvləri ilə keçirilmiş görüşlər zamanı qiymətləndiricilərin sualları cavablandırılmış, hesabatın yekunlaşdırılması üçün zəruri olan əlavə məlumatlar təqdim edilmişdir. Nəticədə qiymətləndirmənin ikinci mərhələsinin hesabat layihəsində də Azərbaycanın vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə qanunvericilik və inzibatçılıq sistemlərinə müsbət rəy verilmişdir. Ölkə hesabatının cari ilin sentyabr ayında Qiymətləndirmə Qrupunun 24-cü iclası zamanı geniş müzakirəsi nəzərdə tutulur. Müzakirə Qlobal Forumun rəhbərliyinin, Qiymətləndirmə Qrupunun 30 ölkəni təmsil edən üzvlərinin, qiymətləndiricilərin və Vergilər Nazirliyinin nümayəndələrinin iştirakı ilə həyata keçiriləcək.

### Etibarlı yurisdiksiya statusu və yüksək reytinqin üstünlükləri

Hazırda Qlobal Foruma üzv olan dövlətlərin 94-də yurisdiksiya üzrə qiymətləndirmənin hər iki mərhələsi yekunlaşmışdır. Həmin yurisdiksiyalardan 60 faizdən çoxu, o cümlədən Birləşmiş Krallıq, Almaniya, İtaliya, Niderland, Lüksemburq və digər dövlətlər «Əsasən uyğundur» reytinqi almaqla vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq standartın alınmasına müvəffəq olmuşlar. Rəsmi təsdiqdən sonra Azərbaycanın bu ölkələr sırasına qoşulması ölkəmizin beynəlxalq arenada şəffaflıq və məlumat mübadiləsi üzrə etibarlı və fəal tərəfdaş kimi rolunu daha da gücləndirəcək.

Həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, Azərbaycanın mötəbər beynəlxalq təşkilat tərəfindən yüksək reytinqə layiq görülməsi ölkəmizə bir sıra üstünlüklər qazandıracaq

Həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, Azərbaycanın mötəbər beynəlxalq təşkilat tərəfindən yüksək reytinqə layiq görülməsi ölkəmizə bir sıra üstünlüklər qazandıracaq. İlk növbədə, əlverişli investisiya mühiti və şəffaflığın təminatı fonunda beynəlxalq arenada nüfuzun daha da artırılması imkanları qeyd olunmalıdır. Ölkənin investisiya potensialının dünya miqyasında tanıdılması ilə xarici investisiyaların cəlbinin stimullaşdırılması və genişləndirilməsi, eləcə də Azərbaycanın bütün maliyyə mərkəzlərinin təmsil olunduğu unikal bir Forumda etibarlı partnyor kimi tanınması xüsusi əhəmiyyətə malikdir. Bütün bunlar Azərbaycanın beynəlxalq səviyyədə məlumat mübadiləsi üzrə etibarlı tərəfdaş imicini daha da yüksəldəcək.

# Vergi inzibatçılığı təkmilləşdirilir

## Vergi bəyannamələrində edilən dəyişikliklər vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edəcək

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamının tələblərinə uyğun olaraq, vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili məqsədilə vergi bəyannamələrinin formalarının və onların əlavələrinin təkmilləşdirilməsinə, bəzi bəyannamələrin əlavələrinin ləğv edilməsinə və ya yenisinin əlavə edilməsinə, eləcə də bəyannamə, hesabat və onların əlavələrinin və tərtib edilmə qaydalarının yenilənməsinə zərurət yaranıb.

Bu zərurətdən irəli gələrək, qısa müddət ərzində bir sıra bəyannamə və hesabat formalarına, onların əlavələrinə və tərtib edilmə qaydalarına dəyişikliklər edilərək vergilər nazirinin əmri ilə təsdiq olunub. Dəyişikliklər «Gəlir vergisinin bəyannaməsi», «Mənfəət vergisinin bəyannaməsi», «Torpaq vergisinin bəyannaməsi», «Əmlak vergisinin bəyannaməsi» və onların tərtib edilmə qaydalarını, «Dövlət rüsumunun tutulması haqqında hesabat»ın forması, «Dövlət rüsumunun tutulması haqqında hesabatın tərtib edilməsi qaydası», habelə «Sadələşdirilmiş verginin bəyannaməsi» və «Əlavə dəyər vergisinin bəyannaməsi»ni, «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi»ni, «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»ni əhatə edir. Beləliklə, 4 bəyannamə və hesabat formasında və onların tərtib edilmə qaydalarında, 7 bəyannamə formasının əlavəsində və tərtib edilmə qaydalarında dəyişiklik edilib, vergi ödəyicilərinin bəyannamə tərtibi ilə əlaqədar sərf etdikləri vaxt itkisini minimuma endirmək, onları izafi xərclərdən azad etmək, eləcə də bəyannamə formalarının sadələşdirilməsi məqsədilə 3 bəyannamənin əlavəsi və onların tərtib edilmə qaydası ləğv edilib.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin Vergi potensialının dəyərləndirilməsi idarəsinin rəisi Vüqar Əliyev dəyişikliklərin mahiyyətini şərh edərək bildirib ki, bu, vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə, bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi hesabına vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edəcəkdir.

V.Əliyevin sözlərinə görə, son dövrlərdə yeni yaradılan sənaye və texnologiya parklarında fəaliyyət göstərən vergi ödəyicilərinə bir sıra vergi güzəştləri verilməkdədir. Bəzi hallarda vergi ödəyiciləri belə güzəşt hüququna malik olmaları barədə bəyannamə təqdim etdikdən sonra təsdiqedici sənədlər vermək məcburiyyətində idilər. Bu sahədə bəyannamə təqdim olunarkən yaranmış məsələlərin ilkin mərhələdə vergi ödəyicisinə sorğu edilmədən aradan qaldırılması üçün «Əlavə dəyər vergisinin bəyannaməsi»nə yeni Əlavə №10 yaradılaraq, «0» (sıfır) dərəcə ilə ƏDV-yə cəlb edilmə haqqında sənaye parkının rezidentinin qeydiyyat şəhadətnamələri barədə məlumatların daxil edilməsi imkanı yaradılıb.

Bundan əlavə, vergi inzibatçılığı çərçivəsində vergitutma obyektlərinin vaxtında müəyyən edilməsi, vergi ödəyicilərinin məlumatlandırılması, eyni zamanda qanunvericiliyin tələbləri ilə tanış olmaması səbəbindən maliyyə sanksiyasına və əlavə faizlərin hesablanmasına məruz qalmamaları, həmçinin bu sahədə vergidən yayınma hallarının qarşısının alınması və vergilərin düzgün hesablanmasına nəzarət edilməsi məqsədilə notarial qaydada icarəyə (kirayəyə, istifadəyə) verilmiş əmlakların müəyyən edilməsi üçün icarəyə verilmiş əmlaklar barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi»nə və «Dövlət rüsumunun tutulması haqqında hesabat»a yeni əlavələr yaradılıb.

Qeyd edilmişdir ki, bu dəyişikliklər təqdim olunmuş bəyannamə ilə bağlı vergi orqanlarında vergidən yayınma ilə bağlı müəyyən edilən risklərlə əlaqədar sualların vergi ödəyicisindən əlavə sənəd və ya məlumat tələb olunmadan aradan qaldırılmasına, eləcə də vergilərin hesablanması barədə vergi ödəyicilərinə verilmiş güzəştlərin daha əhatəli şəkildə bəyannamə formalarında əks etdirilməsinə xidmət edir. Vergi Məcəlləsinin 199-cu maddəsinə edilmiş və 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən müvafiq əmlakına görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddır. Əvvəlki «Əmlak vergisinin bəyannaməsi»nə Əlavənin formasında belə şəxslərin müvafiq əmlaka görə güzəşt hüququnu əks etdirmək üçün sətirlər olmadığından, Əlavəyə bu güzəşt hüququ ilə bağlı 5 yeni sətir və sütun əlavə edilib, 1 sətir və sütunun məzmununa isə dəyişiklik edilib ki, bəyannamə təqdim edildikdən sonra vergi orqanlarında vergi ödəyicisinə qarşı bununla bağlı suallar yaranmasın.

Bu cür halların bəyannamələrdə əks etdirilməsi üçün «Mənfəət vergisinin bəyannaməsi»ndə 3 halda, «Torpaq vergisinin bəyannaməsi»ndə və «Gəlir vergisinin bəyannaməsi»ndə də müvafiq dəyişikliklər edilib.

Xatırladırıq ki, sadələşdirilmiş vergi və xüsusi notariusun gəlir vergisi bəyannamələrinə, «Dövlət rüsumunun tutulması haqqında hesabat»a və onların əlavələrinə edilmiş dəyişikliklər 1 oktyabr 2016-cı ildən, mənfəət vergisi, gəlir vergisi, torpaq vergisi və əmlak vergisi bəyannamələrinə və onların əlavələrinə edilmiş dəyişikliklər isə 1 yanvar 2017-ci ildən qüvvəyə minəcək.



## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində vergi

***İcarəyə götürülmüş bələdiyyə torpaqlarına görə ödənilən icarə haqqından ödəmə mənbəyində vergi tutulurmu?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 106.1.4-cü maddəsinə əsasən, dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla) mənfəət vergisindən azaddır.

Rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər bu maddə üzrə vergitutma obyekti deyildir (VM, maddə 124.3).

Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli 772-İQ nömrəli «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun 7-ci maddəsinin müddəalarına əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər yerli büdcənin gəlirlərinə aid edilir.

**Qeyd olunanlara əsasən:**

İcarəyə götürülmüş bələdiyyə mülkiyyətində olan torpaqlara görə ödənilən icarə haqqından ödəmə mənbəyində vergi tutulmur və bu torpaqlara görə alınan icarə haqqı bələdiyyə tərəfindən mənfəət vergisinə cəlb edilmir.




# «Tax free» sisteminin tətbiq dairəsi genişləndirilir

Ölkə başçısının fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilərək bu il iyun ayının 16-dan Heydər Əliyev adına Beynəlxalq Hava Limanında tətbiq edilməyə başlanmışdır.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanovun sözlərinə görə, yaxın vaxtlarda bu sistemin digər sərhəd-buraxılış məntəqələrində də tətbiqi gözlənilir: «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında dövlət başçısının 4 avqust tarixli sərəncamı ilə ölkəmizi turistlər üçün cəlbedici məkana çevirmək və bütövlükdə turizm sektorunu inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılmasının, hava limanından əlavə, digər sərhəd-buraxılış məntəqələrində də həyata keçirilməsi Vergilər Nazirliyinə həvalə edilmişdir. Tapşırığın icrasını təmin etmək məqsədilə «Tax free» sisteminin hava nəqliyyatı ilə yanaşı, avtomobil, dəmir yolu və su nəqliyyatı da daxil olmaqla respublikanın bütün sərhəd-buraxılış məntəqələrində tətbiq olunması ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün qanun layihəsi hazırlanmışdır. Proqram təminatı və vahid elektron məlumat bazası yaradıldıqdan, onun vergi və digər aidiyyəti dövlət orqanlarının, habelə müvəkkil bankın istifadəsində olan elektron informasiya sistemlərinə inteqrasiyası təmin edildikdən sonra bu sistemin tədricən bütün sərhəd-buraxılış məntəqələrində qurulması həyata keçiriləcək».

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən «Tax free» sisteminin tətbiqi ilə əlaqədar məlumatlandırma məqsədilə ölkəyə gələn xarici vətəndaşlar üçün bələdçi buklet, satıcılar üçün «Malların satışının rəsmiləşdirilməsi proseduru barədə yaddaş» kitabçası hazırlanıb. «Tax free» sistemi ilə əlaqədar Azərbaycan, ingilis və rus dillərində bukletlər hazırlanaraq nəşr edilmiş, xarici vətəndaşlara təqdim edilmək üçün hava limanlarında yaradılmış xüsusi guşələrdə yerləşdirilmişdir.

Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində «Tax free» bölməsi istifadəyə verilmiş, rəsmi internet səhifəsində həmin bölməyə keçid yerləşdirilmişdir. Azərbaycan, rus və ingilis dillərində hazırlanmış məlumatlar nazirliyin rəsmi internet saytında və «Facebook» səhifəsində yerləşdirilmişdir. «Tax free» sisteminin tətbiqi nəzərdə tutulan obyektlərin nümayəndələrinin məlumatlandırılması məqsədilə həm vergi ödəyicilərinə məxsus təsərrüfat subyektlərində, həm də Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində təlimlər təşkil edilmişdir. Xidmət idarəsinin əməkdaşları hava limanı olan şəhərlərə ezam olunmuş, «Tax free» proqram təminatı və vahid məlumat bazasından istifadə qaydaları burada fəaliyyət göstərən gömrük və bank xidməti nümayəndələrinə izah edilmişdir.

**Azərbaycanda təqdim edilən bütün mallara görə ƏDV-nin dərəcəsi 18%-dir. «Tax free» sisteminin imkanından istifadə etmək üçün bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə 300 manatdan az olmamalıdır. Aksizli mallara, ərzaq mallarına, dərman preparatları və tibbi ləvazimatlara, ölkənin mədəni-tarixi sərvəti hesab olunan, mədəni irsin qorunması üçün mühüm əhəmiyyət kəsb edən mallara, ölkə daxilində satışı ƏDV-dən azad olunan mallara, ixracı üçün lisenziya tələb edilən mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, müşayiət olunmayan baqajla ölkə ərazisindən aparılan mallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə, poçt və ya internet xidməti vasitəsilə ixrac edilən mallara «Tax free» tətbiq edilmir.**

**Aytən NƏBİYEVA**

# «Tax free» sisteminin ölkə ərazisində praktiki tətbiqi»

Vergilər Nazirliyinin bu mövzuda təşkil etdiyi təlimdə nazirliyin nümayəndələri ilə yanaşı, Dövlət Gömrük Komitəsinin və digər aidiyyəti qurumların əməkdaşları da iştirak ediblər. Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin şöbə rəisi Səfərəli Cavadov bildirib ki, iqtisadiyyatın şaxələndirilməsi, ölkəyə xarici turistlərin marağının artırılması, son illər ərzində turizm sektorunda nail olunmuş inkişafın davamlılığının təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi üçün beynəlxalq təcrübədə xarici turistlərə münasibətdə geniş istifadə edilən «Tax free» sisteminin respublikamızda da tətbiqinə başlanılıb.

Qeyd olunub ki, dövlət başçısının 2016-cı il 12 iyul tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib. Prezidentin 4 avqust 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nə uyğun olaraq Azərbaycanı turistlər üçün cəlbedici ölkəyə çevirmək və bütövlükdə turizm sektorunu inkişaf etdirmək məqsədilə yaxın vaxtlarda respublika ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması («Tax free») sisteminin, Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanından əlavə, digər sərhəd-buraxılış məntəqələrində də tətbiq olunması nəzərdə tutulur.

Vergilər Nazirliyinin İnformasiya texnologiyaları şöbəsinin bölmə rəisi Kənan Əliyev qeyd etmişdir ki, təlimin məqsədi ölkə başçısının sərəncamından irəli gələn tapşırıqların yerinə yetirilməsi, eləcə də «Tax free» sisteminin tətbiqi ilə bağlı görülən işlər barədə təlim iştirakçılarını məlumatlandırmaq, izahı tələb olunan məsələlər ətrafında müzakirələr aparmaqdır. O, təlim iştirakçılarına bu vəzifələrin icrası ilə bağlı görülən işlər, həmçinin ƏDV ödəyiciləri, gömrük orqanı və müvəkkil bankın vəzifələri barədə məlumat verib.

Təlimin sonunda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Əsas hədəf vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərməkdir

Vergi sistemində həyata keçirilən yeniliklərlə bağlı vergi ödəyicilərinin maarifləndirilməsi məqsədilə müxtəlif formalarda müntəzəm tədbirlər keçirilir. Üzbəüz görüşlərlə yanaşı, daha böyük kütləni əhatə etmək baxımından, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi bu sahədə əvəzsiz rol oynayır. Bundan əlavə, nazirliyin Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri və s. digər xidmət kanalları ilə göstərilən xidmətlər də daimi olaraq təkmilləşdirilir.

### İnternet resursları zənginləşdirilir

Bu ilin birinci yarısında vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və xidmət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar Vergilər Nazirliyi tərəfindən bir sıra layihələr həyata keçirilmiş, o cümlədən xidmət mərkəzlərinin funksional imkanlarının genişləndirilməsi istiqamətlərində işlər davam etdirilmişdir. Vergi ödəyicilərinin öz vergi öhdəliklərini vaxta qənaət edərək internet üzərindən nağdsız qaydada və ya yaxınlıqda olan ödəniş terminalı vasitəsilə yerinə yetirə bilmələri məqsədilə nazirliyin rəsmi internet səhifəsində «Vergiləri necə ödəyək» adlı yeni bölmə yaradılmışdır. Burada vergilərin ödənilməsi üçün yaradılan xidmətlərdən istifadə qaydaları, prosesin ardıcıllığı həm yazılı, həm də videotəsvir formasında yerləşdirilmişdir. Rəsmi internet saytı vasitəsilə vergi ödəyicilərinə yuxarı vergi orqanına şikayət etmək, habelə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək imkanı da yaradılmışdır. Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə biznesin qurulması prosesini mərhələli şəkildə və əyani misallarla əks etdirən «Biznesə necə başlamalı?» maarifləndirici praktiki vəsait və müvafiq baner hazırlanaraq internet səhifəsində yerləşdirilmişdir. Burada, həmçinin, «Azərbaycan Respublikasının vergi qanunvericiliyində və inzibatçılığında hansı dəyişikliklərin edilməsini təklif edərdiniz?» mövzusunda internet-sorğuda iştirak barədə elan yerləşdirilmişdir.

Bu ilin ilk altı ayı ərzində 20 min manatdan çox məbləğdə vergi borcunu ödəməkdən yayındıqlarına görə barələrində açılmış cinayət işi məhkəməyə göndərilmiş vergi ödəyicilərinin, vergi borcu olan şou-biznes nümayəndələrinin, vergi borcuna görə ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış vergi ödəyicilərinin siyahıları daim yenilənərək rəsmi səhifədə yerləşdirilmişdir.

Yanvar-iyun ayları ərzində rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin sayı 2.516.345, «Sual-cavab» bölməsinə daxil olan sualların sayı 1047 təşkil etmişdir. «Onlayn bələdçi» xidmətinə edilən 9780 müraciətdən isə 9648-i (98,7%-i) cavablandırılmışdır.

### Məcəlləyə edilən dəyişikliklərlə bağlı məlumatlandırma

Vergi qanunvericiliyi və inzibatçılığına edilən dəyişikliklərlə bağlı xidmət strukturları tərəfindən müvafiq xidmət kanalları vasitəsilə məlumatlandırma tədbirləri həyata keçirilir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin mahiyyəti barədə bu ilin ilk yarısında əyani misallarla əhatə olunan bir sıra istiqamətlər üzrə praktiki məlumatlandırma vasitələri, o cümlədən daşınmaz əmlak satışının, bina tikintisi, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi ilə əlaqədar yeni bukletlər hazırlanmışdır. Bu vəsaitlər vergi ödəyicilərinin məlumatlandırılması zamanı istifadə üçün həm vergi orqanlarına göndərilmiş, həm də kütləvi informasiya vasitələrində yayımlanmışdır. Bununla yanaşı, vergi ödəyicilərinin, o cümlədən ictimaiyyətin nümayəndələrinin iştirakı ilə respublikanın ayrı-ayrı şəhər və rayonlarında 2989 vergi ödəyicisinin iştirakı ilə 95 görüş keçirilmişdir.




Vergi orqanlarında uçota alınmadan və ya təsərrüfat subyektini qeydiyyatdan keçirmədən fəaliyyət göstərən şəxslər cərimə və sanksiyalar tətbiq edilmədən müvafiq izahatlar verilməklə ünvanlı xidmət qaydasında vergi uçotuna alınmışlar. Cari ilin aprel-iyun aylarında uçotsuz fəaliyyət göstərən 3119 şəxs və ya təsərrüfat subyekti uçota alınmışdır.

Sahibkarlığın təşviqi ilə bağlı vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 13 adda kiçik həcmli bukletlər hazırlanaraq 83.500 nüsxə ilə (70.500 nüsxə Azərbaycan, 13.000 nüsxə ingilis dilində) nəşr etdirilmişdir. Vergi hüquqpozmalarına qarşı tətbiq edilən məsuliyyət tədbirləri haqqında yaddaş bukleti isə 2000 tirajla nəşr olunaraq vergi ödəyicilərinə çatdırılmışdır.

Respublikanın müxtəlif şəhər və rayonlarında, habelə magistral yol kənarlarında və körpülərdə 2016-cı ilin yanvar-iyun ayları ərzində «195» Çağrı Mərkəzini, eləcə də əmək müqaviləsinin bağlanılmasının zəruriliyini təbliğ edən sosial reklamlar yenilənmişdir.




### Ödəyici məmnunluğunu yüksəltmək üçün...

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin və ödəyici məmnunluğu səviyyəsinin yüksəldilməsi məqsədilə vergi ödəyicilərinə xidmət mərkəzlərinin 18-də növbə və qeydiyyat aparatları, səsyazma və videomüşahidə qurğuları, kompüter avadanlıqları quraşdırılmışdır. Bununla da müasir tələblərə cavab verən və növbə avadanlıqları ilə təchiz edilmiş xidmət mərkəzlərinin sayı 51-ə çatdırılmışdır.

2016-cı ilin yanvar-iyun aylarında vergi ödəyicilərinə xidmət strukturları tərəfindən 243.601 şəxs qəbul edilmiş və onlara 371.432 sayda müxtəlif xidmətlər göstərilmişdir.

Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyiciləri ilə 313 görüş təşkil edilmişdir. Bələdiyyələrlə 118, şagird və tələbələrlə 134, «Vergi dostları» ilə 36 görüş keçirilmişdir. Orta ümumtəhsil məktəblərində təşkil edilmiş metodiki kabinetlərdə 28 tədbir keçirilmiş, 7076 vergi ödəyicisinə ünvanlı məlumatlandırma xidməti göstərilmişdir.

**AYTƏN**

# Sənayeçilərə investisiya təşviqi sənədi verilib

## Yeni layihələrin reallaşması nəticəsində iqtisadiyyata 500 milyon manat investisiya yatırılacaq

İqtisadiyyat Nazirliyi sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən daha 19 sahibkara investisiya təşviqi sənədi verib. Beləliklə də bu sənədi almış sahibkarlıq subyektlərinin sayı 51-ə çatıb. İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bildirib ki, investisiya təşviqi ilə bağlı layihələrin reallaşması nəticəsində ölkə iqtisadiyyatına təxminən 500 milyon manat həcmində investisiya yatırılacaq, 4000-ə yaxın yeni iş yeri açılacaq. 7 iqtisadi rayonu əhatə edən bu layihələr qeyri-neft sektorunun müxtəlif sahələrini, o cümlədən kənd təsərrüfatı, qida sənayesi, tütün məmulatlarının istehsalı, yüngül sənaye, tikinti materiallarının, rezin və plastmas məmulatlarının, sürtgü yağlarının istehsalı və digər sahələri əhatə edir.

Qeyd edilib ki, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı və Qaradağ Sənaye Parkı artıq fəaliyyət göstərir və burada rezidentlərin səmərəli fəaliyyəti üçün güzəştli rejim yaradılıb. Mingəçevir Sənaye Parkının təşkili istiqamətində tədbirlər həyata keçirilir. Kiçik və orta sahibkarlığın inkişafı baxımından əhəmiyyət daşıyan Neftçala Sənaye Məhəlləsində istehsal sahələrində avadanlıqların yerləşdirilməsi və digər hazırlıq işləri aparılır. Sahibkarlar tərəfindən Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərmək üçün ümumi investisiya məbləği 40 milyon manatdan çox olan 8 layihənin icrası və 500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Masallı Sənaye Məhəlləsinin təşkili istiqamətində işlər davam etdirilir. Bunlardan əlavə, Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın təşkili uğurla irəliləyir.

Sənaye sahəsində vergi güzəştlərinin tətbiqindən danışan N.Səfərov bildirib ki, investisiya təşviqi sənədini və texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədi alan sahibkarlar Vergi Məcəlləsində və «Gömrük tarifi haqqında» Qanunda nəzərdə tutulmuş güzəştlərdən yararlanmaq imkanı əldə edərək mənfəət və gəlir vergisinin 50%-ni, əmlak və torpaq vergisini, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə ƏDV-ni və idxal rüsumlarını ödəməkdən 7 il müddətində azad olunurlar.

Nazirlikdən bildirilib ki, müraciət etmiş digər sahibkarların ərizələrinə də baxılacaq və müvafiq prosedurlar nəzərə alınmaqla onlara da investisiya təşviqi sənədlərini veriləcək.

Qeyd edək ki, sahibkarlara verilən məbləğ investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələrindən, investisiya layihəsinin həcmindən və layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidlərindən asılı olaraq dəyişir. İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri 5 region üzrə müəyyənləşib.

İxracın təşviqi və yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi və ixrac yönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin tətbiqi məqsədilə qanunvericiliyə dəyişiklik edilməsi istiqamətində işlər aparılır. Sahibkarların hüquqlarının qorunması sahəsində də əlavə tədbirlər görüləcək. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar lisenziya və icazələrin sayının və rüsumların azaldılması, bu sənədlərin alınma prosedurlarının sadələşdirilməsi, sahibkarların hüquqlarının daha etibarlı qorunması, apelyasiya şuralarının fəaliyyətinin artırılması, qeyri-neft ixracının təşviqi, müraciətlərin elektronlaşdırılması və operativ cavablandırılması, şəffaflığın gücləndirilməsi tədbirləri davam etdiriləcək.

**E.CƏFƏRLİ**

### BİR CÜMLƏ - BİR XƏBƏR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Sənaye sahələrinin inkişafı, diversifikasiya və qlobal dəyər zəncirinə inteqrasiya» mövzusunda seminar keçirilib.

Azərbaycan, Türkiyə və Türkmənistan Pekindən Londonadək nəqliyyat dəhlizinin yaradılması üçün Aşqabad bəyannaməsini imzalayıb.

Rusiya ilə Səudiyyə Ərəbistanı neft bazarında sabitliyin qorunması və uzunmüddətli perspektivdə sabit sərmayə səviyyəsinin təmin edilməsi üçün digər neft istehsalçıları ilə birgə fəaliyyət haqqında razılığa gəliblər.

Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda qeyri-neft sektoruna dəstək verəcəyini bildirib.

«Azərikimya» İstehsalat Birliyinin etilen-polietilen zavodunda başlanmış modernləşdirmə işlərinin gələn ilin avqust-sentyabr aylarında yekunlaşması nəzərdə tutulub.

### ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar. «Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandıracaq, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində ayrı-ayrı istiqamətlərə dair təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayıracaqdır.*

## İKT məhsullarına fərqli vergi tətbiq olunmasını vacib sayırıq



Özəl «Neyron texnoloji» şirkətinin nümayəndəsi İsmayıl Ələkbərov

Vergi sistemində aparılan islahatlar həqiqətən də sahibkarların mənafeyinə, onların gəlir imkanlarının yaxşılaşmasına xidmət edir. Əvvəlki illərdə vergi orqanı əməkdaşları ilə müəyyən problemlərimiz olurdu, amma son dövrlərdə heç bir anlaşılmazlıq yaranmır. İnanıram ki, yoxlamaların və inzibatçılığın təkmilləşdirilməsi, xüsusilə də kameral vergi yoxlamaları zamanı aydın, şəffaf və ədalətli hesablama metodologiyasının tətbiqi və bəyannamələrin təqdim edildiyi gündən sonrakı 30 gün müddəti ilə məhdudlaşdırılması vergi yoxlamalarının fəlsəfəsini dəyişdirəcək.

Vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi islahatların əsas ana xəttini təşkil edir, kiçik və orta sahibkarların mənafeyinə xidmət edir. Bu tədbirlər kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin gəlir əldə etmək imkanlarını yaxşılaşdıracaq, sahibkarların vergidən yayınmasının qarşısını alacaq.

### Taxıl məhsulları və digər zəruri ərzaq malları ilə avtomobil, texnika və sair məhsulların idxalına tətbiq olunan ƏDV-nin fərqləndirilməsi zəruridir

İKT bazarı üçün maraq doğuran sahələrdən biri «rəqəmsal iqtisadiyyat»dır və Azərbaycanda kifayət qədər potensial və iddialı şirkətlərin bu sahədə dünya bazarına çıxmaq imkanları var. Təklif edirəm ki, «rəqəmsal iqtisadiyyat»la bağlı maddənin detalları konkretləşdirilsin, bu sahədə korporativ vergiqoymanın aydın mexanizmləri aydınlaşdırılsın, müzakirələrə şirkətlərin də nümayəndələri cəlb olunsun və onların təklifləri nəzərə alınsın. Bundan başqa, fikrimcə, dünyada daha geniş vüsət alan və artıq özünü ölkəmizdə də hiss etdirən e-ticarətin vergiyə cəlb olunması ilə bağlı tədbirlərin təkmilləşdirilməsinə ehtiyac var. Bu, dövlət büdcəsinə «rəqəmsal iqtisadiyyat»ın müxtəlif istiqamətləri üzrə əlavə vergilərin cəlb edilməsinə, yüksək texnoloji mal və xidmətlərin ölkəmizə daxil olmasına təkan verə bilər.

Biz, İKT şirkəti olaraq, xarici valyutanın Azərbaycana gəlməsində maraqlıyıq və xarici şirkətlərin elan etdiyi tenderlərə qatılırıq. Bu sahədə vergi rejiminin dəyişdirilməsini, sadələşdirilməsini istəyirik. İKT beyin məhsulu olduğundan, bu malların ixracına fərqli vergi tətbiq olunmalıdır. Bunun vergi qanunvericiliyində, o cümlədən ikiqat vergitutmanın tətbiqi ilə bağlı sazişlərdə nəzərə alınmasını vacib sayırıq.

«Vahid hesabat standartı» sisteminin tətbiq olunması mexanizminin hazırlanmasında da sahibkarlıq subyektlərinin fikirlərinə yer verilməsi əhəmiyyətlidir. Bu sistemin mexanizmləri sadə və aydın olmalıdır. İdxal olunan bir sıra mallara tətbiq olunan ƏDV-nin fərqləndirilməsi də zəruridir. Məsələn, taxıl məhsulları və digər zəruri ərzaq malları ilə avtomobil, texnika və sair məhsulların idxalına tətbiq olunan ƏDV-nin fərqləndirilməsi zəruridir. Xaricdən ölkəyə gətirilən avtomobil ilə ərzaq malları arasında ən azı iki dəfə fərq qoyulmalıdır.

## İslahatlar çərçivəsində bəyannamə tərtibi proqramında təkmilləşdirmələrin aparılması məqsədəmüvafiq olardı



İqtisadçı-ekspert, «İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin vergi mütəxəssisi Radil Fətullayev

Vergi sahəsində aparılan islahatların birbaşa iqtisadiyyatın və qeyri-neft sektorunun inkişafına, azad sahibkarlığın fəaliyyətinin yaxşılaşmasına və gəlir əldə etmək imkanlarının artmasına səbəb olacağına inanıram. Bununla bərabər, vergi sahəsində bəzi məsələlərin nəzərə alınmasını məqsədəuyğun hesab edirəm.

Respublikamızda mühasibat uçotu və hesabatının təkmilləşdirilməsi ilə bağlı Dünya Bankının dəstəyi hesabına xeyli işlər görülüb. Beynəlxalq standartlara uyğun yeni hesabat formaları hazırlanıb. Qanunvericiliyə əsasən, mühasiblər öz hesabatlarını yeni standartlarla tərtib etməlidirlər. Lakin bu gün mühasiblərin çoxu tərəfindən bu tələbə tam şəkildə əməl edilmir. Bunun əsas səbəblərindən biri vergi auditi zamanı müəssisə və təşkilatlardan Milli Mühasibat Uçotu Standartlarına uyğun yeni hesabat formalarının tələb edilməməsidir. Bu da ona gətirib çıxarır ki, yeni uçot standartlarına keçid ləngiyir. Əgər audit zamanı mühasiblərdən kassa metoduna əsasən hesabat deyil, yeni hesabat formaları tələb edilsə, bu məsələ öz həllini tapar və aparılan uçot islahatları müsbət nəticəsini verər. Mənə elə gəlir ki, bununla bağlı Vergi Məcəlləsinə ayrıca bənd əlavə edilməsinə ehtiyac var.

Amortizasiya metodlarında da dəyişikliklər edilməsi yaxşı olardı. Beynəlxalq praktikada amortizasiyanın daha çox «düz xətt» metodundan istifadə olunur. Azərbaycanın Vergi Məcəlləsində isə yalnız «azalan qalıq metodunun tətbiqi» nəzərdə tutulub. Yaxşı olardı ki, «düz xətt» metodunun tətbiqi barədə Vergi Məcəlləsində müvafiq müddəa öz əksini tapsın. Çünki azalan qalığın tətbiqi bəzi vergi ödəyicilərində sonda avadanlığın silinməsi zamanı maya dəyərinin hesablanması ilə bağlı müəyyən problemlər yaradır.

İslahatlar çərçivəsində bəyannamə tərtibi proqramında (BTP) təkmilləşdirmələrin aparılması da məqsədəmüvafiq olardı. BTP-də sadələşdirilmiş və mənfəət vergisi bəyannaməsinin içərisində yerləşdirilmiş Əlavə 1 hissəsi Vergilər Nazirliyi tərəfindən beynəlxalq mühasibat uçotu standartlarına keçidlə əlaqədar atılmış mühüm addımlardan biridir. Çünki bu hissədə verilmiş balans hesabatının maddələri əvvəlkindən fərqli olaraq beynəlxalq standartlara uyğun hazırlanıb. Bir sözlə, bu, vergi bəyannamələri içərisində yeganə formadır ki, IFRS və MMUS standartlarına cavab verir. Həmin hesabat formasının maddələrinin mütərəqqi formada hazırlanmasına baxmayaraq, bu gün mühasiblərin çoxu Əlavə 1-in doldurulmasında çətinlik çəkirlər. Bunun səbəbi hesabatın doldurulması qaydasında bəzi uyğunsuzluqların olmasıdır. Fikrimcə, vergi orqanlarına balansda cari ilin yekunu, əvvəlki ilin yekunu və bu 2 il arasındakı fərq təqdim edilsəydi, bu, daha informativ hesabat forması olardı. Təəssüf ki, hesabat, qeyd olunan informasiyalar əvəzinə, bizdən il ərzində baş verən axınların - daxilolma, təqdimetmə, silinmə və ləğvetmənin uçotunu tələb edir. Halbuki il ərzində baş vermiş çoxsaylı axınların hərəkətini bu cədvəldə əks etdirmək praktiki olaraq mümkün deyil. Yalnız il ərzində apardığı əməliyyatlar cüzi olan kiçik sahibkarlarda bunu etmək mümkün olur.

### Yeni hesabat formaları ilə bağlı Vergi Məcəlləsinə ayrıca bənd əlavə edilməsi məqsəduyğundur

İndiyə qədər hər il hesabatın Əlavə 1 hissəsinə müəyyən dəyişikliklər edilib. Amma bəzi məsələlərin nəzərə alınması zəruridir. Bizim fikrimizcə, balans formasında verilmiş maddələr yeni hesablar planına tam şəkildə uyğunlaşdırılmalı və tez-tez yerdəyişmə aparılmamalıdır. Hesabatın doldurulma qaydası dəyişdirilərək oradakı hərəkətlərlə (daxilolma, təqdimetmə, silinmə və ləğvetmə) bağlı hissələr ləğv edilməli, əvəzində cari il üzrə qalıqlar, əvvəlki il üzrə qalıqlar və fərq bölməsi verilməlidir. Balansın kapital hissəsində də mühüm təkmilləşdirmələrin aparılmasına ehtiyac var.

Formalarla yanaşı, uçot prosesinin də yeni standartlara uyğun aparılması ilə bağlı təlimatların hazırlanması, beynəlxalq mühasibat standartlarını geniş tətbiq edən ekspertlərin xidmətindən istifadə edilməsi, bu sahədə maarifləndirmə işinin gücləndirilməsi çox vacibdir. Bunlarla yanaşı, elektron vergi hesab-fakturaları (VHF) ilə də bağlı təkliflərimizin nəzərə alınmasını istərdik. Məlumdur ki, ay ərzində ödənilmiş elektron vergi hesab-fakturaları Vergi Məcəlləsinin müddəalarına əsasən, növbəti ayın 20-dək siyahı təqdim edilməklə əvəzləşdirilir və vergi ödəyicisinin ƏDV öhdəliyindən həmin əsaslandırılmış məbləğ azaldılır. Ay ərzində qəbul edilmiş elektron VHF-lər vergi ödəyicisi tərəfindən ödənildikdən sonra növbəti ayın hesabatına qədər satıcı bu elektron VHF-ni ləğv edərsə, alıcı həmin fakturanı siyahıda əsaslandıra bilmir və əvəzləşmə məbləğini itirir. Bununla əlaqədar təcrübədə tez-tez belə bir hala rast gəlirik: satıcının göndərdiyi hesab-fakturanın əsasında ödəniş edilir və əvəzləşdirmə rəsmi şəkildə tanınır. Lakin bəzi hallarda ödəniş edildiyi halda, satıcı heç bir əsas olmadan hesab-fakturanı ləğv edir və nəticədə əvəzləşmə hüququ itirilir.

Elektron VHF-yə dəqiqləşdirmə sistemi elə qurulmalıdır ki, alıcıya sorğu göndərib razılıq almadan hesab-fakturanı dəyişmək və ya ləğv etmək mümkün olmasın.

***Hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# İqtisadiyyatın qan damarları

**Hesablamalara görə, kiçik və orta biznesin fəaliyyəti səmərəli təşkil edilən ölkələrdə istehsal olunan məhsul və xidmətlərin 50 faizdən çoxu, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin 80 faizi, hər yeni açılan 3 iş yerindən 2-si həmin sahənin payına düşür. Bundan əlavə, kiçik və orta sahibkarlıq orta təbəqənin formalaşmasının əsas mənbəyi kimi cəmiyyətdə zəruri sabitliyi təmin edərək ölkədə həyata keçirilən mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəklənməsinin sosial bazasını genişləndirir.**

Azərbaycanda sahibkarlığın inkişafına dair bir sıra proqramlar qəbul olunub və uğurla həyata keçirilib. Bu proqramlar üzrə iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm işlər görülüb, sahibkarlara dövlət maliyyə dəstəyi sistemi formalaşdırılıb. Millət vəkili Əli Məsimlinin sözlərinə görə, sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılır, sahibkarlara zəruri texniki yardım göstinə dayandırılması, lisenziyaların və icazələrin sayının minimuma endirilməsi, onların verilməsi prosedurlarının asanlaşdırılması və şəffaflaşdırılması, investisiyaların və ixracın təşviqi, sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsi və digər mühüm qərarlar sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur.

Əli Məsimlinin sözlərinə görə, hələlik Azərbaycanda istehsal olunan məhsulda kiçik biznesin xüsusi çəkisi, eləcə də qabaqcıl texnika və texnologiyanın istehsala tətbiqi və bir sıra bu cür mühüm göstəricilər üzrə kiçik və orta sahibkarlığın payı sosial-iqtisadi tərəqqiyə güclü təkan vermək səviyyəsinə çatmayıb: «Təkcə onu qeyd etmək kifayətdir ki, ölkədə kiçik müəssisələr vasitəsilə istehsal olunan məhsul ÜDM-in 5%-nin altındadır və orada çalışanların əksəriyyətinin maaşı 200 manatdan aşağıdır. Fərdi sahibkarların təsərrüfat fəaliyyətinin nəticələrini də bura əlavə etsək, yenə kiçik biznesin səmərəli fəaliyyətini xarakterizə edən həmin beynəlxalq göstəricilərə çatmamışıq. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var».

Ə.Məsimli Azərbaycanda sahibkarlığın inkişafını sürətləndirməkdən ötrü aşağıdakı istiqamətlərdə sistemli və davamlı tədbirlərin həyata keçirilməyə başlanıldığını vurğulayıb. Həmin tədbirlərə aşağıdakılar daxildir:

## ÜDM-də özəl sektorun payı 81 faizə, sənaye istehsalında 80 faizə, kənd təsərrüfatı istehsalında 99,8 faizə, məşğul əhalinin sayında 70 faizə çatıb

tərən strukturlar formalaşdırılır. Azərbaycanda həyata keçirilən dövlət proqramları çərçivəsində ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin, xüsusən də kiçik və orta sahibkarların sayı artır, sahibkarlıq fəaliyyəti, o cümlədən sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyəti genişlənir və bu sahədə nəticələr ildən-ilə yaxşılaşır.

Hazırda ÜDM-də özəl sektorun payı 81 faizə, sənaye istehsalında 80 faizə, kənd təsərrüfatı istehsalında 99,8 faizə, məşğul əhalinin sayında 70 faizə çatıb.

Bütün bunlar sahibkarlıq fəaliyyətinin dairəsini genişləndirməklə yeni iş yerlərinin açılmasına və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təkan verməklə yanaşı, sahibkarlığın istehsalyönümlü və innovativ sahələr üzrə inkişafını da təmin etməyə yönəldilib. Ölkəmizdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi üçün sistemli işlər görülür. Xüsusilə son dövrlərdə sahibkarlıq subyektlərində yoxlamaların iki il müddə-

- ölkədə iqtisadi fəallığın artmasına əlavə təkan verə biləcək səviyyədə sağlam rəqabət mühitinin formalaşdırılması;
- biznes mühitinin yaxşılaşdırılması;
- sahibkarlar üçün münbit şəraitin yaradılmasına xidmət edən islahatlar paketinin, sahibkarlığın inkişafının dövlət tərəfindən dəstəklənməsinin gücləndirilməsi;
- qeyri-neft sektorunun inkişafı və ixrac imkanlarının genişləndirilməsi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi;
- vergi sahəsində əsaslı islahatlar və vergi yükünün azaldılması istiqamətində görülən işlərin genişləndirilməsi;
- bizneslə məşğul olanlara, xüsusən də istehsalla məşğul olmaq istəyən iş adamlarına əlverişli şərtlərlə kredit verilməsi;
- biznes kreditlərinin faiz dərəcələrinin aşağı salınması;
- yerlərdə sahibkarlığın inkişafına mane olan amillərin aradan qaldırılması vasitəsilə regionların potensialından, təbii, istehsal, əmək və intellektual resuslarından istifadənin səmərəliliyinin artırılması.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə):** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Налоги в Азербайджане: что стоит во главе отношений с предпринимателями?

Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsində mükafata layiq görülüb



Рауф Насиров
«Бакинский рабочий»

Определение «налоговая политика» в учебниках экономической теории раскрывается как нечто сложное и занаученное, как система регулируемых правом общественных отношений по определению и взиманию налогов и сборов.

С помощью налоговой политики государство реализует функции по управлению финансовыми потоками, и чем прозрачнее действует эта система, тем она более гибкая и эффективная. Ведь налоги и другие виды сборов формируют доходы государственного бюджета. И чем больше денег будет собрано в казне, тем лучше государство сможет реализовать социальную и экономическую политику, которая, кстати, в числе других предусматривает и меры по стимулированию и содействию развитию предпринимательства. То есть получается замкнутый круг: государство заинтересовано в увеличении прибыли от налогов с тем, чтобы потратить часть этих денег на помощь в развитии самих предпринимателей. Вот почему в этом вопросе столь важна прозрачность как самой налоговой системы, так и деятельности субъектов предпринимательства. В поисках этой важной составляющей я и отправился в Департамент налогов города Баку.

Признаться, совсем недавно я уже посещал расположенный возле станции метро Н.Нариманов Центр обслуживания налогоплательщиков и остался очень высокого мнения об уровне тамошнего сервиса. В рамках журналистского конкурса, объявленного Обществом международного сотрудничества Германии, мне пришлось пройти регистрацию в налоговой службе в качестве физического лица, чтобы в случае выигрыша денежного приза я мог выплатить налог. Так называемый VÖEN я получил сравнительно быстро и совершенно без проблем. И еще тогда обратил внимание на полнейшую тишину и приятную рабочую обстановку в этом центре. Никто из работников не суетился, а из посетителей не повышал нервно голос, на лицах налоговиков — молодых парней и девушек играла улыбка, благодаря чему посетители чувствовали себя спокойно и уверенно. Порой тишину нарушал лишь электронный женский голос, называющий порядковые номера сидящих в зале ожидания людей — автоматика в действии.

Поскольку для репортажа мне пришлось запрашивать официальное разрешение в Министерстве налогов, то моими гидами в центре стали начальник Управления услуг и учета налогоплательщиков Департамента налогов города Баку Агами Тахиров и два его заместителя — начальник отдела по обслуживаню налогоплательщиков М.Мамедли и начальник подразделения информирования налогоплательщиков и пропаганды налогов М.Амирасланов. После непродолжительного знакомства с гидами, мне предложили посетить операционный зал и на месте увидеть все оказываемые в Центре услуги.

### Технологии, укрепляющие доверие

Прямо у входа размещается терминал, посредством которого можно произвести уплату налогов и воспользоваться другими электронными услугами. Такие высокотехнологичные устройства позволяют налогоплательщикам экономить время и на месте осуществлять необходимые выплаты. Принцип простой: проверил есть ли долги по налогам, оплатил их, получил соответствующий чек и избавил себя от надобности идти в банк. А.Тахиров говорит, что аналогичные устройства уже стоят в центрах обслуживания налогоплательщиков в Бинагадинском и Насиминском районах, и пока проект размещения терминалов носит больше пилотный характер, чтоб проверить интерес к ним налогоплательщиков.

Впрочем, для того, чтоб уплатить налоги, как говорится, на расстоянии, не обязательно идти в банк или пользоваться услугами банкомата. Сделать это можно с любого компьютера, имеющего выход в Интернет: из дома, с работы и даже из операционного зала самого Центра, где они установлены на длинном стенном стеллаже. А для особо консервативно настроенных граждан имеются свои приспособления в виде подвесной доски с образцами заявлений и деклараций. Под каждым образцом бумажный столбик с аналогичным документом. У меня невольно возник вопрос, который, уверен, задали бы и вы на моем месте: зачем заполнять бумаги «вживую», если то же можно сделать на компьютере? Мои спутники объясняют, что всегда найдется человек, предпочитающий работать по старинке, желающий заполнить бумажные документы и на месте представить их операторам.

Проходим дальше и видим возле зала ожидания Центра большие подвесные телемониторы, на которых прокручиваются социальные ролики по теме «уплати налоги». В углу вижу телефон, что тоже, вроде, не вписывается в общую картину. Кто должен по нему звонить, если на столах у работников Центра имеются свои телефонные аппараты? «Телефоны для посетителей, — объяснил А.Тахиров. — Они позволяют соединиться с оператором известной информационной налоговой службы «195» (расположенной в Насиминском районе Баку). Такая связь нужна для того, чтобы при необходимости посетитель мог довести до налоговых служб информацию о своем недовольстве действиями того или иного сотрудника. Его разговор сохранится в записи и на основании приведенных фактов будет начато расследование относительно действий нерадивого работника».

Разговор подхватывает Магомед Мамедли. «Служба «195» создана в 2003 году и является первой в СНГ. После нас эту практику заимствовала Россия, а недавно такие же службы открылись в Молдове, Таджикистане, Казахстане. Коллеги из этих стран использовали азербайджанское программное обеспечение и переняли наш опыт работы. Если же говорить о заимствованной практике, то при создании Центров обслуживания налогоплательщиков мы ориентировались на опыт Голландии, Бельгии, Турции. Но при этом мы создали нечто комбинированное, с учетом местной специфики, и, уверяю вас, это еще не конец. Реформы продолжаются и центры будут постоянно совершенствоваться», — пообещал он.

По словам начальника Управления, в центре четко действуют определенные правила. Одно из них гласит: не только непосредственное, но и какое бы ни было по рангу начальство не может обратиться к сотруднику, когда тот обслуживает посетителя. Руководство может наблюдать со стороны за работой оператора, но не имеет права вмешиваться в разговор, давать какие-то инструкции, отвлекать. А сотрудникам запрещается по время обслуживания посетителя даже отвечать на вызов мобильного телефона. То есть все нацелено на защиту интересов посетителей.

### Психологический аспект службы

Есть в центре и специально оборудованная комната, в которой проходит прием граждан. Кстати, о возможности попасть на прием... У входа в здание размещено электронное табло с графиком часов приема руководящих сотрудников ведомства. Записаться на прием можно здесь же, посредством электронной системы или в удаленном режиме. Она фиксирует и сортирует все запросы. Что касается помещения, где проходят эти приемы, то оно тоже обустроено по последнему слову техники. Компьютер позволяет на месте подключиться к Интернету или внутренней информационной базе и получить всю интересующую посетителя или самих налоговиков информацию. А.Тахиров сообщил, что в налоговой службе хранится абсолютно вся информация о хозяйствующем субъекте с того момента как он стал налогоплательщиком.

«Информация архивируется, и во время встречи наши специалисты могут просмотреть данные и сделать соответствующие выводы о виде деятельности предпринимателя, — сказал начальник Управления. — Видите эту камеру? Естественно она установлена открыто, и о ней посетители знают, поскольку цель записи как раз в том и заключается, чтобы предоставить гражданам возможность, в случае надобности, обжаловать действия представителей налоговой службы и представить запись в качестве доказательства нарушения своих прав. По записи руководство также может определить, насколько сотрудник профессионален в решении тех или иных вопросов, возникших в ходе встречи с налогоплательщиками. Это одна из форм действующей в нашем ведомстве многоуровневой системы защиты прав граждан».

В службе действует система оценки сотрудников по балльной системе. Любые их встречи с посетителями в общем зале тоже фиксируются на камеры, и эту запись, как в он-лайн режиме, так и позже, начальство тоже изредка просматривает, чтобы понять в какой области сотрудника следует подтянуть. От того, насколько вежливо и правильно, с точки зрения разработанных процедур, сотрудник общается с налогоплательщиком, зависит его будущее повышение по службе. На каждом столе установлена специальные кнопочки со смайликами и в завершение визита оператор налоговой службы обязательно попросит вас оценить уровень оказанных им услуг. Оценка производится по пятибалльной системе и эти баллы обязательно принимаются во внимание при анализе компетентности налоговика.

«Любой входит в нашу службу в качестве гражданина, а уходя, становится налогоплательщиком — говорит А.Тахиров. — Вот почему высокое качество обслуживания всегда в центре внимания руководства налоговой службы».

Мысль подхватывает М.Амирасланов и добавляет, что в Центре разработана и четкая фраза приветствия посетителей. «Здравствуйте, проходите пожалуйста, присаживайтесь», — так следует встречать людей — говорит он. — Сотрудников службы обучают правилам обслуживания по специальной программе. Даже правильный, вроде бы, ответ может ввести человека в заблуждение, и потому по отношению к самим сотрудникам применяется жесткий регламент. Обязательно следует давать ссылки на отдельные статьи Налогового Кодекса и максимально емко информировать налогоплательщиков, чтоб не было случайных или фривольных трактовок по срокам или формам выплат. Клиенты могут находиться в разном расположении духа. Кто-то придет уставший, кто-то постоянно задает вопросы, интересуется даже мелочами, кто-то едва сдерживается и срывается, иной многое знает и не нуждается в советах, и если ответ его не устроит, то может вступить в диспут и завязать спор. Вот почему еще одним ценным качеством для сотрудников является устойчивость к стрессам. С ними систематически проводятся занятия по психологической подготовке».

### Цель — прозрачность всей системы

В центре я провел пару часов, было около 12 часов дня, а приятный электронный женский голос назвал порядковый номер 81-го посетителя. Не удивительно, поскольку налоговики говорят, что в целом, помимо Наримановского отделения, то есть вместе с Насиминским, Гарадагским, Бинагадинским, Сабунчинским районными центрами обслуживания, ежедневно налоговые органы страны посещают порядка 700 налогоплательщиков, и почти половина их обслуживается именно в Наримановском Центре. А буквально через несколько дней, с 1-го и по 20-е июля, начнется представление налогоплательщиками деклараций за второй квартал текущего года, и людей здесь будет значительно больше. Чем дальше, тем график работы станет плотнее, поскольку наш человек очень уж любит все делать в самый последний момент.

Подведя итоги, хотелось бы заметить, что стремительное развитие налоговой системы Азербайджана вытекает из стремительности развития в целом экономики нашей страны. Для того, чтобы обеспечить интеграцию экономики в мировую систему, азербайджанская налоговая система должна быть гибкой. Но не только. Без должной прозрачности в работе всей системы, без уважения и доверия к налогоплательщикам, налоговикам вряд ли удалось бы достичь таких впечатляющих успехов. И гордиться им, а также всем нам, как видим, есть чем..

beynəlxalq panoram

# Yunanıstanda vahid əmlak vergisinin məbləği açıqlanıb

Məlum olmuşdur ki, ölkədə təxminən 600.000 daşınmaz əmlak sahibi 1000 avrodan artıq məbləğdə vahid əmlak vergisi (ENFIA) ödəməli olacaq. «Daily» nəşrinin yazdığına görə, Maliyyə Nazirliyinin əmlak üçün vergi yükünün dəyişdirilməsi ilə bağlı qərarından sonra orta sinfin üzərinə daha ağır yük düşəcək. Bu o deməkdir ki, əmlak sahiblərinin təxminən 8-10%-i bu il 30% artıq ENFIA ödəyəcəklər ki, bunun da ümumi məbləği 800 milyon avrodan artıq olacaq.

Bu il əvvəlki illərin təcrübəsinə əsasən, ev təsərrüfatlarının vergidən yayınma ehtimalı nəzərə alınmaqla vergi dərəcəsinin həddi yuxarı çəkilmişdir. Ölkədə vergilərin qismən olsa belə, tam ödənilməməsinin təzyiqi ümumilikdə büdcənin üzərinə düşür. Hesablamalara görə, bu il məqsədli proqram olan ENFIA-nın ümumi məbləği 2,65 milyard avroya çatacaq (bu hər bir ehtimalla yığılması nəzərdə tutulan məbləğdir).

Qeyd edək ki, ENFIA-nın köçürülməsi və büdcəyə ödənilməsi üçün müəyyən edilmiş tarix avqustun sonudur.

# Amerikalılar vergisiz endirimlərə maraq göstərmirlər

«Rasmussen Reports» saytının yeni icmalının məlumatına əsasən, amerikalılar keçən illərlə müqayisədə vergi güzəştləri edilmiş endirim kampaniyalarına daha az maraq göstərirlər. Ölkə üzrə aparılmış yeni onlayn rəy sorğusunun nəticələrinə görə, rəyi soruşulanlardan yalnız 44 faizi vergi güzəştləri ilə endirimli alış-veriş etməyə meyil göstərir. 2010-cu ildən bəri ən aşağı səviyyəsi qeydə alınmış bu göstərici keçənilki sorğu zamanı 54 faiz olmuşdu. Bundan əlavə, respondentlərin 14 faizinin rəyinə əsasən, onlar endirim kampaniyaları zamanı alış-veriş etməyə daha az meyil edirlər, 38 faizinin fikri isə belədir ki, onların alış-veriş etmələrinə endirimlərin heç bir aidiyyəti yoxdur.

Vergi fondunun məlumatına görə, ABŞ-ın 17 ştatında bu il sales tax holidays (vergi tətili endirimləri) kampaniyası aparılacaq. Bu kampaniyalar, adətən, iki-üç gün davam edir və ilin son dərəcə məhdud dövrlərində azsaylı vergitutma obyektlərinə tətbiq olunur. Bir qayda olaraq, bu cür endirim kampaniyaları avqustda, ənənəvi məktəb alış-verişi mövsümündə keçirilir, məktəbli paltarlarına və ləvazimatlarına şamil edilir. Vergi fondu bu cür endirim kampaniyalarını tənqid edərək bildirmişdir ki, «bunlar iqtisadi artıma və ya istehlakçı maraqlarının əhəmiyyətli şəkildə yüksəlməsinə şərait yaratmır».

# Tarix boyu ən qəribə vergilər

Demək olar ki, bütün ölkələrdə tarixin müxtəlif dövrlərində hökumətlər dövlətin xəzinəsini doldurmaq üçün qeyri-adi, bəzən də mücərrəd və cəfəng görünən vergilər tətbiq ediblər. Həmin vergilərdən bəzilərinin təqdimatı ilə mövzunu davam etdiririk:

- Qədim Romada öz azadlığını satın almaq arzusunda olan qullardan vergi tutulurdu.
- Orta əsrlərdə Avropada sabuna tez-tez vergi qoyulurdu. İngiltərədə verginin bu növü XIX əsrdə - 1835-ci ildə ləğv edildi.
- Nyu-Yorkda hazırlanmış yeməkdən vergi tutulur. Beləliklə, kəsilmiş bubliklər birinci dəfə adi yemək kimi, ikinci dəfə isə hazırlanmış yemək kimi vergiyə cəlb edilir və əslində, ikiqat vergitutmaya məruz qalır.
- 1885-ci ildə Kanadada «çinlilər üçün» vergi tətbiq edilməyə başlanılmışdı, bu vergi Çindən Kanadaya yaşamağa gələn immiqrantlardan tutulurdu. 1923-cü ildə bu vergi Çin immiqrasiyasında qoyulan qadağalarla əlaqədar ləğv edildi.
- Federal səviyyədə qadağanın olmasına baxmayaraq, ABŞ-ın bir sıra ştatlarında indiyədək marixuana üçün vergi qüvvədə qalır.
- 1975-ci ildə İngiltərədə vətəndaşlar başlarına qoyduqları pariklərdən xoş iy gəlsin deyə, istifadə etdikləri ətirli maddələr üçün vergi ödəməyə başlamışdılar. Lakin bu verginin ömrü o qədər də uzun olmadı, tezliklə pariklərin dəbdən düşməsi ilə bu vergi də aradan qalxdı.
- 1712-ci ildə İngiltərədə o zaman dəbdə olan üzərində yazılar həkk olunmuş divar kağızları üçün xüsusi vergi tətbiq olunmağa başlamışdı. Lakin həmin vergi xəzinəyə gözlənilən gəliri gətirmədi, vətəndaşlar adi divar kağızlarından istifadə etməklə bu vergini ödəməkdən imtina etdilər. Divara çəkilmiş kağızlar üzərində yazıları isə sonradan elə divarda həkk etməyə başladılar.
- Fransa tarixində dərin iz salmış hadisələrdən biri də «duz vergisidir». Fransa İnqilabının baş verməsinə səbəb olan amillər arasında «duz vergisi» də göstərilməkdədir.
- Çikaqoda tərkibində un olmayan şirniyyat məhsullarına görə 6%-lik vergi tutulur, tərkibində un olan şirniyyat məhsulları üçün isə bu verginin dərəcəsi 1%-dir.
- Danimarkada inəklərin gövşəməsinə görə vergi tutulur və ekoloji mülahizə ilə, başqa sözlə, atmosferə atılan istixana qazlarının həcmini azaltmaq məqsədilə tətbiq olunan bu verginin məbləği o qədər də az deyil: hər inək üçün sahibi 110 dollar «gövşək vergisi» ödəmək məcburiyyətindədir.
- 2002-ci ilə qədər Almaniyada rüşvətə görə vergi tutulurdu.
- 2005-ci ildə ABŞ-ın Tennesi ştatında hər narkotik maddə satışı üçün anonim vergi ödəmək barədə qərar çıxarılmışdır.
- ABŞ-ın Konnektukut ştatında özünüz üçün uşaq bezi alsanız, vergidən azadsınız, ancaq həmin bezi öz uşağınız üçün alsanız... vergi ödəməli olacaqsınız. Sadəcə, bezin kimin üçün alındığının müəyyənləşdirilməsi çətindir...
- ABŞ-ın Kolorado ştatında ərzaq məhsulu üçün zəruri olmayan qablaşdırmaya görə vergi tutulur. Bu o deməkdir ki, əlüstü yemək restoranında vergi ödəyicisi qəhvə içəsi olsa, plastik fincan üçün deyil, fincanın qapağı üçün vergi ödəməlidir.
- İsveçrədə yeni doğulan uşağa ad qoymaq üçün vergi xidmətinə məlumat verilməli və xidmətdən xüsusi icazə alınmalıdır.

# Portuqaliyada pəncərədən görünən mənzərəyə görə vergi tutulacaq

Hökumətin daşınmaz əmlak vergisi ilə bağlı qəbul etdiyi son qanun dəyişikliyi dünyada sensasiya kimi qarşılanıb: əlverişli rayonda yerləşən və ya pəncərəsi xoş mənzərəyə açılan mənzillər üçün əmlak vergisi kəskin şəkildə artırılıb.

Əvvəlcə portuqaliyalıların əksəriyyəti bunu hökumətin gecikmiş 1 aprel zarafatı kimi qəbul etmişdi. Lakin tezliklə aydın oldu ki, zarafatın yeri deyil: mənzərəli ərazilərdə və ya günəş işığının daha çox düşdüyü məhəllələrdə yerləşən evlərin sahibləri bundan sonra daha artıq vergi ödəyəcəklər. Eyvandan baxanda görünən xoş mənzərə (məsələn, dəniz mənzərəsi) daşınmaz əmlak vergisinin üstünə 20% əlavə gətirir və bu məbləğ hər il yerli büdcəyə ödənilməlidir.

«Bu ideya bizi, sadəcə, çaş-baş saldı, - Lissabon ev sahibləri assosiasiyasının rəhbəri Menesez Leytau demişdir. - Bizimlə məsləhətləşmək bir yana, qanunu da parlament tətili zamanı qəbul etmişlər və bu mövzu ətrafında heç bir müzakirə aparılmamışdır».

Portuqaliyanın vergi qanunvericiliyi üçün bu cür yenilik heç də göydəndüşmə deyildir, indiyə qədər daşınmaz əmlak üzrə tutulan verginin məbləği evin yerləşdiyi əraziyə görə fərqli idi, lakin bu fərq cəmi 5 faizlə məhdudlaşırdı. Bir maraqlı məqam da budur ki, kasıb rayonda yerləşən evin sahibinə 5 faizlik bonus verilirdi. İndi isə fərqli qayda qüvvədədir: yaxşı yerdə tikilmiş mənzərəli evlərdə yaşayanlar dördqat artıq vergi ödəyəcəklər, kasıb rayonlarda yaşayan sakinlər isə ən yaxşı halda 10 faizlik vergi endirimi əldə edə biləcəklər.

Ev sahibləri assosiasiyasında məsələyə yanaşma belədir ki, hökumətin əsaslandığı mülahizələr başdan-ayağa subyektiv meyarlardır. Bununla belə, maliyyə xidmətlərinin təcili şəkildə əlavə gəlirlərə ehtiyacı var, çünki böhran zamanı ölkədə yeni daşınmaz əmlak obyektləri əhəmiyyətli dərəcədə az tikilmişdir və bu, daşınmaz əmlakdan gələn vergi gəlirlərinin azalmasına gətirib çıxarmışdır. İndi həmin azalmanın yerini doldurmaq üçün müxtəlif yollar axtarılır...



## Xəbər lenti

**Rumıniya**da müzakirəyə verilmiş yeni qanun layihəsinə əsasən, televiziya və internet provayderləri, eləcə də kinoteatrlar və telefon operatorları aylıq qazanclarının 1%-i məbləğində vergi ödəməlidirlər.

**Çili**nin vergi administrasiyası bu ilin birinci yarısında yaranmış vergi cərimələrini və cərimələrin üstünə yığılan dəbbə haqlarını bağışlamışdır. Bu vergi əfvi 123.128 vergi ödəyicisini əhatə edir.

**Niderland**da elitar içkilər sayılan şampan şərabı və prosekko dəbdəbə əşyası kimi vergiyə cəlb olunacaq. Gələn ildən bu içkilərin hər şüşəsi üçün 1,10 avro vergi tutulacaq.

**Braziliya**da gələn ilin sonuna qədər qüvvədə olacaq qanuna əsasən, «Rio-2016»nın sponsorları olan «Coca-Cola», «Visa», «McDonald's» və digər korporativ şirkətlər Olimpiya Oyunlarından əldə etdikləri gəlirlərdən vergi ödəməyəcəklər. BBC-nin hesablamasına görə, ölkə büdcəsinin bundan 1 milyard dollar itkisi olacaq.

**Braziliya**nın neft hasilatı ilə məşğul olan ştatları neftin ucuzlaşması və investisiyaların azalması ilə bağlı yaranmış büdcə kəsirinin aradan qaldırılması üçün vergiləri artırmaq niyyətindədirlər.

**Avropa Komissiyası**nın başa çatdırdığı və ictimaiyyətə açıqladığı təhqiqatın nəticələrinə əsasən, İrlandiya ABŞ-ın «Apple» şirkətinə heç bir əsas olmadan 13 milyard avro məbləğində vergi güzəşti etmişdir. Komissiyanın qərarına əsasən, bu məbləğ İrlandiya xəzinəsinə ödənilməlidir.

**İrlandiya**nın Pivə İstehsalçıları Birliyi hökuməti aksiz vergisinin məbləğini azaltmağa çağırmışdır. Birliyin müraciətində vurğulanır ki, son dörd ildə ölkədə bu sektora tətbiq olunan aksiz vergisi 42 faiz artmışdır və İrlandiya pivə üçün aksiz dərəcəsinin həcminə görə Aİ-də üçüncü yeri tutur.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Biologiya ilə məşğul olan alim; 2.Öhdəliklərin qarşılıqlı əvəz edilməsi və ləğv olunması əsasında aparılan nağdsız hesablaşma sistemi; 3.Ölmüş adamın adına, xatirəsinə verilən yemək, xeyrat; 4.Portuqaliyada şəhər; 5.Meyvə və ya meyvə əsaslı (konsentrantlı) sərinləşdirici şirin içki; 6.Yaponiyada qonaqları rəqs və mahnı ilə əyləndirən, müxtəlif mövzularda həmsöhbət olan qadınlara deyilir; 7.Qızılquşkimilər dəstəsinin qartal cinsinə aid quş növü. Ukraynada xüsusi təyinatlı dəstə; 13.Sinirlərin qıcıqlanması nəticəsində bədənin hər hansı yerində hiss edilən əziyyət, əzab, sancıların ümumiləşdirilmiş adı; 15.Gürcüstanda azərbaycanlıların sıx yaşadıqları şəhər; 16.Dünyanın ən böyük axtarış sistemlərindən biri (ingiliscə yazılışı); 17.İndoneziyaya məxsus ada; 18.İntibah dövrünün ən məşhur fransız memarı; 20.İngiltərənin cənubundan başlayan çay; 21.Yaponiyada şəhər.

**Soldan sağa:** 1.Bakteriologiya mütəxəssisi; 8.Yunan mifologiyasında qəhrəman və İtaka çarı; 9.Hərbi rütbə; 10.Azərbaycandan görünən ekvatorial bürc; 11.Sakit okeanın cənubunda dövlət; 12.Bir sıra operaların, operettaların və uşaq mahnılarının bəstəkarı («Ala-bula boz keçi», «Ay pipiyi qan xoruz», «Sərçə» və s.). Azərbaycanın əməkdar incəsənət xadimi və xalq artistinin adı; 14.Azərbaycanda qız adı; 19.ABŞ və Kanada sərhədində yerləşən Böyük göllər sistemində sahəsinə görə ən kiçik göl; 21.Litvada şəhər; 22.Su nəqliyyatı vasitəsi; 23.Fransa-Rusiya müharibəsi zamanı baş vermiş ən böyük döyüş; 24.Zəmanə, dövr; 25.Linqvistika elmində yeni yaranan sözlərə aid termin.



*Fransa-Rusiya müharibəsi zamanı baş vermiş ən böyük döyüş (rəssam: Lui-Fransua Lejen)*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Madyan; 2.Refleks; 3.Aysel *(Teymurzadə)*; 4.Oberton; 5.Sonata; 6.Arif *(Qasımov)*; 8.Tala; 13.Alma; 15.Balaban; 16.Ateizm; 17.Sekans; 18.Slalom; 20.Kilim; 21.Benar *(Pol Albert)*. **Soldan sağa:** 1.Mirqasımov *(Mirəsədulla)*; 7.Defisit; 9.Ekran; 10.Areal; 11.Lətafət; 12.İslam; 14.İnabe; 19.Tekumse; 21.Bilal *(Əliyev)*; 22.İmla; 23.Hannibal; 24.Mum; 25.Qastronom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 11000

idman

# Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib

Əvvəli 1-ci səhifədə

Bu Şahmat Olimpiadası da ölkəmizdə bu intellektual oyunun təbliğinə öz layiqli töhfəsini verəcək.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, 42-ci Ümumdünya Şahmat Olimpiadası bu qədim oyunun tarixinə yeni uğurlu səhifələr yazacaq, ölkələr arasında sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət göstərəcək.

Açılış mərasimində Bakı Şahmat Olimpiadasının Təşkilat Komitəsinin sədri, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, FIDE-nin prezidenti Kirsan İlyumjinov çıxış ediblər. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 42-ci Ümumdünya Şahmat Olimpiadasını açıq elan edib.

Açılış mərasiminin təşkilatçısı - Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsinin rəsmi tərəfdaşı olan «Amapola Exclusive Events» şirkəti layihə üzrə tərəfdaşlarla birlikdə tamaşaçılara parlaq video-mepinq proyeksiyaları, milli və müasir rəqslər, 176 nağaraçının müşayiət etdiyi bayraqlar paradından ibarət möhtəşəm və heyrətamiz tamaşa təqdim edib.

Sonra Şahmat Olimpiadasında iştirakçı ölkələrin bayraqları «Biz bir dünyayıq» devizi altında arenaya gətirilib. Bu vaxt səhnə kompleksi Olimpiadanın iştirakçı ölkələrinin sərhəd cizgilərinin əks olunduğu nəhəng xəritəyə çevrilib. Yer kürəsinin sürətli fırlanması paralel olaraq, coşqun musiqi ritmləri və Azərbaycanın ənənəvi musiqi aləti - nağara zərbələrinin sədaları altında 176 nağaraçının iştirakı ilə bayraqların paradı olub.

Bütün olimpiadalarda ən həyəcanlı anlardan biri də püşkatmadır. Olimpiadanın baş hakimi, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov, onunla birlikdə qadınlar arasında şahmat üzrə dünya çempionu, çinli qrossmeyster Hou Yifan, keçmiş dünya çempionu, rusiyalı qrossmeyster Vladimir Kramnik içərisində qara və ya ağ fiqurun olduğu imitasiya olunmuş şahmat fiqurunun içərisindən iştirakçıların siyahısında sıra nömrələri cüt olan yığma komandalar sırasında oyunun hansı fiqurla başlanacağını müəyyən ediblər.

Mərasim Azərbaycan estradasının populyar nümayəndələrinin improvizə etdiyi caz, rok və muğam sintezinin ifası ilə başa çatıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 42-ci Ümumdünya Şahmat Olimpiadasında mübarizə aparacaq Azərbaycan yığma komandalarının üzvləri ilə görüşü olub.



Bu əlamətdar hadisə ilə bağlı bütün Azərbaycan xalqını təbrik edən dövlətimizin başçısı Bakıda mötəbər beynəlxalq tədbirlərin keçirilməsinin artıq bir ənənəyə çevrildiyini vurğulayıb: «Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi Azərbaycanın gücünü, Azərbaycana olan hörməti göstərir. Ötən il birinci Avropa Oyunları çox böyük uğurla keçirilmişdir. Deyə bilərəm ki, Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Bu il «Formula-1» yarışı keçirilmişdir ki, bunun da auditoriyası 500 milyon insandır. Gələn il isə İslam Həmrəyliyi Oyunları keçiriləcək və bu gün Şahmat Olimpiadası başlayır. Mənə verilən məlumata görə, 175 ölkənin nümayəndələri Olimpiadada iştirak edəcəklər və bu, rekord göstəricidir».

Azərbaycan şahmatçılarının doğma Vətəndə ölkəmizi ləyaqətlə təmsil edəcəyinə əminliyini vurğulayan Prezident İlham Əliyev bəyan edib ki, şahmatın inkişafı Azərbaycanda dövlət siyasətidir. Bütün şəhər və rayonlarımızda şahmat məktəbləri fəaliyyət göstərir: «Bu ənənə hələ 1970-ci illərdə, o vaxt Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində şahmat məktəblərinin böyük əksəriyyəti ya bağlanmışdı, ya sıradan çıxmışdı, ya da hərracda satılmışdı. Onların yerində dükanlar, restoranlar açıldı. Çox təəssüfedici haldır. Ancaq ulu öndər Heydər Əliyev Azərbaycana qayıdandan sonra şahmata diqqət yenə də lazımi səviyyəyə qalxdı».

Ölkə başçısı bir daha şahmatçılarımızı təbrik edib, onlara uğurlar arzulayıb.

Sentyabrın 2-də «Baku Crystal Hall»da 42-ci Ümumdünya Şahmat Olimpiadasının birinci turuna start verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı əvvəlcə Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov ilə görüşüb. Prezident İlham Əliyev Azərbaycanın kişilərdən ibarət birinci komandasının üzvü Şəhriyar Məmmədyarov ilə Zimbabve şahmatçısı Rodvel Makoto arasındakı partiyada ilk gedişi edib. Sonra dövlətimizin başçısı yarışların keçirildiyi zala baxıb, şahmatçıların oyunlarını izləyib.

Prezident İlham Əliyev qadın şahmatçıların yarışında Rusiya idmançısı Aleksandra Kostenyuk ilə şotlandiyalı Araksamita Grant arasındakı partiyada da ilk gedişi edib. Azərbaycan Prezidenti əlil şahmatçıların yarışına da baxıb.

Prezident İlham Əliyev daha sonra arenada yaradılan şəraitlə tanış olub. Dünyanın əsas idman yarışlarından biri olan Şahmat Olimpiadasını ölkəmizdə yüksək səviyyədə keçirmək üçün bütün zəruri addımlar atılıb. «Baku Crystal Hall» bu mötəbər yarış üçün tam hazır vəziyyətə gətirilib. İdmançıların və nümayəndə heyətlərinin burada özlərini tam rahat hiss etmələri üçün mühüm işlər görülüb. Təşkilati işlərə 500-dək könüllü cəlb edilib.

Dövlətimizin başçısı Olimpiadanın sərgi salonuna baxıb. Məlumat verilib ki, Olimpiada çərçivəsində şahmat sərgisi təşkil olunub. Olimpiadanın tamaşaçılarına «Baku Crystal Hall»da təşkil olunan sərgidə iştirak etmək üçün imkan verilir. Bu sərgidə şahmatla bağlı nadir eksponatlar, həmçinin müxtəlif tarixi yarışlardan plakatlar nümayiş olunur.

Sonra Prezident İlham Əliyev şərhçilər otağına baş çəkib, yarışı işıqlandıran mətbuat nümayəndələrinə müsahibə verib.

Bakının ev sahibliyi etdiyi 42-ci Ümumdünya Şahmat Olimpiadası indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi artıq tarixə düşüb. Bu mötəbər idman bayramında iştirak etmək üçün qeydiyyatdan keçən 176 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparır. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Azərbaycan Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunur. Kişilərdən ibarət birinci komandada Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli və Arkadi Naydiç yer alıblar. İkinci komandanın tərkibinə Vasif Durarbəyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abasov və Ülvi Bacarani daxil ediliblər. Üçüncü komanda isə Nail Bəşirli, Məhəmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəylidən ibarətdir.

42nd CHESS OLYMPIAD BAKU2016

Qadın şahmatçılardan ibarət birinci komandanın heyətinə Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Hücətova, Gülnar Məmmədova və Nərmin Kazımova cəlb olunub. İkinci komandada Türkan Məmmədyarova, Nərgiz Umudova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Nərmin Xələfova yer alıblar. Üçüncü komandanın heyətində isə ölkəmizi Nərmin Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva və Aynur Kətanova təmsil edirlər. Kişilərin yarışında ən yüksək reytinq Rusiya millisinə məxsusdur. Bu komandanın əmsalı 2760-a bərabərdir. ABŞ (2740) ikinci, Çin (2735) üçüncüdür. Azərbaycanın birinci komandası isə 2705 xalla dördüncü yeri tutur. Qadınların turnirində isə reytinqə görə lider Çin millisidir - 2528 xal. İkinci pilləni Rusiya (2493), üçüncü yeri isə Ukrayna (2485) tutur. Azərbaycanın birinci komandası 2320 reytinq xalına malikdir.

# Azərbaycan liderlər qrupunda yerini qoruyur

Sentyabrın 2-də «Baku Crystal Hall»da 42-ci Ümumdünya Şahmat Olimpiadasına start verilib.

İlk turda Azərbaycanın birinci yığması Zimbabve, ikinci komandamız Mozambik şahmatçıları ilə qarşılaşıb, üçüncü komandamızın rəqibləri isə Papua-Yeni Qvineya şahmatçıları olub. İki komandamız görüşünü 4:0 hesablı qələbə ilə başa vurub. İkinci komandamız isə Mozambiki 3,5:0,5 hesabı ilə məğlub edib.

Qadınlardan ibarət birinci yığmamız Nikaraqua, ikinci komandamız isə Yaponiya şahmatçılarına 4:0 hesabı ilə qalib gəliblər. Lesoto komandası yarışa gec gəldiyinə görə üçüncü komandamıza texniki qələbə verilib.

Beləliklə, ilk turda Azərbaycan komandaları aktivlərinə 2 xal yazdırıblar.

Sentyabrın 3-də keçirilən Olimpiadanın ikinci turunda Azərbaycanın kişilərdən ibarət birinci komandası Makedoniya yığmasını məğlub edib. Əsas komandamız bütün partiyaları qələbə ilə başa vurub. «Azərbaycan 2» komandası isə Litva yığmasını məğlubiyyətə uğradıb. Dörd qarşılaşmadan üçü şahmatçılarımızın qələbəsi ilə başa çatıb. Bir partiya isə heç-heçə nəticələnib. Kişilərdən ibarət üçüncü komandamız isə güclü Belarus şahmatçılarına məğlub olublar - 0,5:3,5.

Azərbaycanın qadın şahmatçılardan ibarət əsas komandası meksikalı rəqiblərini məğlub edib - 2,5:1,5. İkinci yığma komandamız 2,5:1,5 hesabı ilə Monqolustana qalib gəlib. Üçüncü komandamız isə eyni hesabla Türkiyə millisinə məğlub olub.

Sentyabrın 4-də Olimpiadanın üçüncü turu keçirilib. Bu turda kişilərin yarışında Azərbaycanın birinci komandası Macarıstana 3:1 hesabı ilə qalib gəlib. İkinci komandamız 1:3 hesabı ilə məğlub olub. Üçüncü komandamız isə livanlı rəqibləri üzərində təmiz qələbə qazanıblar.

Qadınların yarışında isə Azərbaycanın birinci komandası Polşa üzərində 2,5:1,5 hesabı ilə qələbə qazanıb. İkinci komanda Almaniya yığması ilə sülh bağlayıb. Üçüncü komandamız isə Qırğızıstanı 4:0 hesabı ilə məğlub edib.

Sentyabrın 5-də keçirilən dördüncü tur çərçivəsində kişilərin yarışında Azərbaycanın birinci komandası Rumıniya millisinə 3:1 hesabı ilə qalib gəlib. İkinci komandamız görmə qabiliyyəti zəif olan şahmatçıların beynəlxalq komandasını (İBCA) 3,5:0,5 hesabı ilə məğlub edib. Üçüncü komandamız isə türkmənistanlı rəqiblərinə uduzub - 0,5:3,5.

Qadınların yarışında isə Azərbaycanın birinci komandası Rumıniya, üçüncü komandası isə Braziliya ilə xalları yarı bölüb - 2:2. «Azərbaycan-2» komandası isə İtaliya yığmasına 1,5:2,5 hesabı ilə məğlub olub.

Beləliklə, dörd turdan sonra Azərbaycanın kişilərdən ibarət əsas komandası 8 xalla Çin, Niderland, Hindistan, Belarus və Ukrayna ilə birgə 1-6-cı yerləri bölüşür. «Azərbaycan-2» komandası 27-ci, «Azərbaycan-3» isə 71-ci pillədə qərarlaşıb. Qadınlardan ibarət birinci komandamız 11-ci, «Azərbaycan-2» 34-cü, «Azərbaycan-3» isə 39-cü pillədə qərarlaşıb.

Sentyabrın 6-da Olimpiadanın beşinci turuna start verilib. Bu turda kişilərdən ibarət əsas milli komandamız Hindistanla qarşılaşıb. Dörd turdan sonra hər iki komanda itkisiz irəliləyir. İkinci komandamız Türkmənistanla, üçüncü yığmamız isə Zimbabve ilə qarşılaşıb. Qadınlardan ibarət əsas yığmamızın rəqibi Almaniya olub. İkinci millimiz İspaniyanı, üçüncü komandamız isə Özbəkistanı sınağa çəkib.

## Namiq Əliyev yenidən Dünya Güləş Birliyinin İcraiyyə Komitəsinin üzvü seçilib

Sentyabrın 3-4-də Fransanın Makon şəhərində Dünya Güləş Birliyinin növbəti illik konqresi keçirilib. Konqresdə qurumun İcraiyyə Komitəsinin səlahiyyət müddətləri başa çatan üzvlərinin yerinə yeni seçkilər baş tutub.

2010-2016-cı illərdə ölkəmizi İcraiyyə Komitəsində təmsil edən və səlahiyyət müddəti başa çatan Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Namiq Əliyev yenidən öz namizədliyini irəli sürüb. Konqres iştirakçılarının böyük əksəriyyətinin səsini qazanan Azərbaycan təmsilçisi növbəti dəfə Dünya Güləş Birliyinin İcraiyyə Komitəsinin üzvü seçilib.

Qeyd edək ki, ilk dəfə 2010-cu ildə Dünya Güləş Birliyinin İcraiyyə Komitəsinin üzvü seçilən N.Əliyev bundan sonra daha altı il ərzində bu mötəbər beynəlxalq qurumun idarəçiliyində yer alacaq.

## Sərbəst güləşçilərimiz dünya çempionatında ikinci oldular

Fransanın Makon şəhərində gənclər arasında güləş üzrə dünya çempionatına yekun vurulub. Yarışların sonuncu günündə 55, 66, 84 və 120 kiloqram çəkidə sərbəst güləşçilər döşək üzərinə çıxıblar. İdmançılarımız 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla yalnız güclü Rusiya yığmasından geri qalaraq, çempionatı ikinci yerdə başa vurublar.

Yarışda 55 kiloqram çəkidə mübarizə aparan Əfqan Xaşalov ardıcıl olaraq Hindistan, Özbəkistan və Yaponiya güləşçilərini məğlub edərək finala yüksəlib. Finalda Rusiya təmsilçisinə də qalib gələn güləşçimiz dünya çempionatının qızıl medalına sahib olub. Orxan Abbasov (66 kq) mübarizəyə 1/16 finaldan başlayıb. Ardıcıl olaraq Qırğızıstan, Macarıstan və Bolqarıstandan olan rəqiblərinə qalib gələn güləşçimiz yarımfinalda Rusiya idmançısına uduzub. Bürünc medal uğrunda görüşdə Fransa təmsilçisini məğlub edən O.Abbasov fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.



Dünya çempionatında 84 kiloqram çəki dərəcəsində yarışan Həcımurad Məhəmmədsəidov da 1/16 final mərhələsindən mübarizəyə qoşulub. Ardıcıl olaraq Çin, Hindistan və ABŞ-dan olan rəqiblərini mübarizədən kənarlaşdıran təmsilçimiz gərgin keçən yarımfinal qarşılaşmasında Türkiyə idmançısına uduzub. Bürünc medal uğrunda görüşə çıxan güləşçimiz Polşadan olan rəqibinə heç bir şans verməyib və çempionatı üçüncü sırada tamamlayıb. Umar İsrailov (120 kq) ardıcıl olaraq Yaponiya, Macarıstan və Türkiyədən olan rəqiblərini üstələyərək finala yüksəlib. Rusiya təmsilçisi ilə gərgin keçən final görüşü rəqibin xeyrinə bitib və güləşçimiz gümüş medalla kifayətlənib.

Qeyd edək ki, dünya çempionatında gənc yunan-Roma güləşçilərimiz 1 qızıl, 1 bürünc əldə ediblər, qadın güləşçilərimiz isə 1 bürünc medalla kifayətləniblər.

## Azərbaycan bayrağı yenidən Braziliyada dalğalandı

Sentyabrın 5-də Rio-de-Janeyrodakı Paralimpiya Kəndində Azərbaycan bayrağının qaldırılması mərasimi keçirilib. Tədbirdə paralimpiyaçı idmançılarla yanaşı, Azərbaycan nümayəndə heyətinin üzvləri, ölkəmizin Braziliyadakı səfirliyinin əməkdaşları iştirak ediblər.



Qeyd edək ki, XV Paralimpiya Oyunlarında Azərbaycan 24 idmançı ilə təmsil olunur. İdmanın altı - cüdo, atletika, pauerliftinq, üzgüçülük, güllə atıcılığı və kamandan oxatma növü üzrə yarışacaq paralimpiyaçılarımızın altısı qadındır. Lisenziyaların sayı isə 41-dir. Sentyabrın 7-də Rio-de-Janeyronun «Marakana» stadionunda yarışın açılış mərasimi təşkil ediləcək. Mötəbər yarışda üçrəngli bayrağımızı ikiqat paralimpiya çempionu, «Bakı-2015» ilk Avropa Oyunlarının qalibi və yığmanın kapitanı İlham Zəkiyev aparacaq.

«Mançester Siti» klubunun baş məşqçisi Xosep Qvardiola futbol aləminin ən bahalı baş məşqçisi kimi tarixə düşüb. Kataloniyalı mütəxəssisin illik maaşı 18 milyon avro təşkil edir.
Ən bahalı məşqçilər siyahısında ikinci yerin sahibi Qvardiolanın «Bavariya» klubundakı xələfi Karlo Ançelottidir. İtaliyalı mütəxəssis ildə 15 milyon avro məvacib alır. «Mançester Yunayted» klubunun portuqaliyalı məşqçisi Joze Mourinyo isə ondan bir qədər az -14,7 milyon avro qazanır.

